№ 249 ISSN 1027-3875 15 aprel 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

**1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır**

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Knyaz ASLAN

Redaksiya heyəti:
**Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV**

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M. Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

**Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir**

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

**It has been publishing twice
a month since January, 1995**

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Knyaz ASLAN

Editorial member:
**Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV**

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

**The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press**

OXUYUN
Bu nömrədə

Mənim stolüstü kitablarımdan biri belə adlanır: "Mən bu dünyaya nə gətirdim"

Bunun səbəbləri var. Hər şeydən əvvəl, ona görə ki, həmin kitabı hər dəfə vərəqləyəndə müasir Azərbaycan ziyalılarının görkəmli nümayəndələrindən birinin - Hamlet Isaxanlının ömür yolunun bəzi səhifələrini bir daha izləyirəm.



Eyni zamanda, mən bu kitabda müasir Azərbaycanımızın tanınmış elm və təhsil qurucusunun əməllərinin təcəssümünü görürəm.

Müasir dövrümüzün riyaziyyatçı aliminin uğurlarının sirlərinə bələd oluram.

SƏH.14

BİR YARPAQ KÖVRƏK XATİRƏ



... Məndən soruşsalar ki, Camal Mustafayev kimdir?

Cavab verərəm: o, adında olan beş sadə hərfin beşinin də böyük yazılmasına layiq olan **İNSAN**.

SƏH.10

SUPPLY CHAIN MANAGEMENT IN OIL INDUSTRY

Oil and gas are unrecoverable resources. And for this reason business world tries to use these resources in a most effective way. One of the approaches providing effective and efficient solution of this problem is supply chain management.

There are various definitions of the supply chain management. Some of them interpret a supply chain as the optimal flow of raw materials and products from site of production to the site of final use. Others emphasize that supply chain simply comprises all elements in the process that enable the delivery of a product to a customer.

SƏH.21

Tələbə Məclisi «Gənclər mükafatı» ilə təltif edilib

SƏH. 5

CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİYİ TÜRKİYƏDƏN KEÇİR

Azərbaycanın və Gürcüstanın regionda və dünyada aparıcı dövlətlər sırasına keçməsi ermənilər narahat edir

Cənubi Qafqaz Şərqlə Qərbin (və ya Avropa ilə Asiyanın) kəsişməsində yerləşir. XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılmasından sonra burada mövcud olmuş dövlətlər - Azərbaycan, Gürcüstan və Ermənistan öz müstəqilliklərini elan etdilər. Təbii olaraq, yeni dövlətlərin özlərinəxas problemləri (məsələn, Dağlıq Qarabağ, Cənubi Osetiya və s.) meydana çıxmağa başladı. O vaxtdan dövrümüzə qədər bəzi dövlətlərin separatizmi dəstəkləməsi nəticəsində burada yaşayan insanların həyatı təhlükə altına düşdü.

SƏH.6

МЕТОДОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ЭТНИЧЕСКОГО ИЗУЧЕНИЯ КАЗАХСКОГО ГЕРОИЧЕСКОГО ЭПОСА

Героический эпос казахского народа - явление самобытное. Изучением его художественных особенностей занимались многие ученые старшего поколения, включая и видных русских исследователей в лице В.М.Жирмунского, А.К.Боровкова, Б.Н.Путилова и др. Научные достижения фольклористики советского периода можно сгруппировать вокруг таких познавательных подходов, как поэтическое, историко-поэтическое и типологическое.

SƏH.24

Leo A.Gher: "MƏN ERMƏNİLƏRİ TANIMIRAM, ONLAR HAQQINDA HEÇ NƏ BİLMİRƏM!"



Cənab Leo Gher Amerika jurnalistikasında özünəməxsus iz qoyan qocaman müxbirlərdəndir. O öz yaradıcılığını əsasən media iqtisadiyyatı, media hüququ və siyasəti, media menecmentliyi üzərində qurmuşdur. Hazırda bu sahələr üzrə araşdırma və tədqiqatlarını davam etdirir. Bu istiqamətlərdə Avropa, Afrika, Asiya, Skandinaviya, Rusiya və Orta Şərqdə keçirilmiş bir sıra təlimlərin, konfransların və seminarların təşkilatçısı və aparıcısı olmuşdur.

SƏH.8

ZƏKA SİLAHDAN DA GÜCLÜDÜR...



Tarixə nəzər salsaq çox aydınca görərik ki, indiki Ermənistan ərazisinin 82 %-dən çoxu Azərbaycan torpaqlarıdır. Ata-baba yurdlarımızı müxtəlif vaxtlarda və müxtəlif yollarla ruslar Azərbaycandan qoparıb ermənilərə vermişlər.

SƏH.28


UŞAQ DÜNYASI



SƏH.34

REKTORLARIN GÖRÜŞÜ

Aprelin 3-də Kuzey Kıprıs Girne Amerikan Universitəsinin rektoru Hifzi Doğan və rektor köməkçisi Olğun Üstün Xəzər Universitəsinə gəldilər. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı ilə görüşdə universitetlər arasında elm və təhsil sahəsində əlaqələrin qurulması və inkişafı haqqında müqavilə imzalandı.



UNİVERSİTETİN YUBİLEYİ

Aprelin 11-də Bakı Biznes Universitetinin 15 illik mərasimində Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı geniş və maraqlı çıxış etdi. O, çıxışında təhsilimizin uğurları və problemləri barəsində söhbət açaraq, Bakı Biznes Universitetinin işçi heyətini təbrik etdi.

RUSİYA PARLAMENTİNDƏ 12 MİLYARDER ƏYLƏŞİR

Bu il Rusiya milyarderlərin sayına görə dünyanın ikinci ölkəsi olub. Lakin milyarderlərin hakimiyyətdə təmsil olunmasına gəlincə, Rusiya birinci yerdədir. «Forbes» jurnalının verdiyi məlumata görə, hazırda Rusiya parlamentində 12 milyarder əyləşir. Onların hamısının birgə sərvəti nə az, nə çox, düz 41 milyard dollar təşkil edir. Rusiyada milyarderlər yalnız qanunverici yox, digər hakimiyyət strukturlarında da fəaliyyət göstərirlər. Bu ölkədə bir milyarder qubernator var, digər bir milyarder isə Moskva merinin həyat yoldaşıdır.

Rusiya milyarderləri arasında birinci yerdə 42 yaşlı Süleyman Kərimov durur. Onun sərvəti 17 milyard dollardır. Prezident Putinin «Dumada milyarderlər lazım deyil» deməsinə qədər Kərimov 8 il Dövlət Dumasında çalışıb.

İkinci yerdə var-dövləti 4 milyarda qədər olan Qleb Fetisov qərarlaşıb. O, 2005-ci ildə parlamentə üzv seçilmişdi.

Digər milyarderlər isə 2 milyardlıq sərvətin sahibi olan 45 yaşlı Sergey Puqaçov, 1,5 milyard sərvətə malik olan, 52 yaşlı keçmiş bank sahibi Fərhad Əhmədov, 2,3 milyardlıq sərvəti olan Dmitri Ananyev və başqalarıdır.

Əlbəttə ki, sərvət və siyasi güc az qala dövlət təsisatları qədər yaşa malikdir. Lakin dünyanın heç bir ölkəsində Rusiya hökumətində olduğu qədər sərvət sahibi təmsil olunmur. Onların əksəriyyəti Vladimir Putinin Vahid Rusiya Partiyasında birləşiblər. Bu partiyaya üzvlük onlara böyük üstünlük verir.

Moskvadakı Karneqi Mərkəzinin alimi Nikolay Oterov deyir ki, dövlətli adamın hakimiyyət strukturlarında irəliləməsi bəzi hallarda vətəndaşın da marağında olur. Çünki əgər böyük adam kiçik bir regionu təmsil edirsə, onun var-dövlətinin hətta kiçik bir hissəsi də region üçün qənimətdir. Onlar müəyyən vəzifə və hörmət qazanırlar. Bu da onlara daha yüksəkdə olanlarla işləməyə, beləliklə də öz şəxsi biznəslərinin inkişafına imkan yaradır.

Rusiya qanunlarına görə, qanunverici orqanın nümayəndələri və ya hər hansı məmur bizneslə məşğul ola bilməz. Bəs necə olur ki, bu qədər milyarder ortaya çıxır? Bir çoxları öz şirkətlərinin hissələrini dost-tanışa və ya ailə üzvlərinə paylamaqla qanundan yan keçə bilirlər.

Azərbaycana gəlincə, iqtisadçı Azər Mehdiyev deyir ki, bizdə belə siyahılar hazırlanmadığına görə Azərbaycanda rəsmi olaraq milyarderin olub-olmamasını öyrənmək mümkün deyil: «Lakin bu, heç də o demək deyil ki, Azərbaycanda milyarder yoxdur. Onlar bu və ya digər iqtisadi sahəyə nəzarət edirlərsə və gəlirləri varsa, bir çox hallarda bu, qeyri-rəsmi şəkildə həyata keçirilir və müxtəlif insanların adlarına yazılır».

Şəhla SULTANOVA

BİZİM KÖNÜLLÜLƏR

Xəzər Universitəsi yaranandan təhsil sisteminə görə fərqli universitələrdən biri kimi həmişə ön sıralarda yer tutub. Əlbəttə, universitəmizin qazandığı uğurlarda tələbələrin də özünəməxsus rolu var. Tələbələrimiz müxtəlif sahələr üzrə həmişə uğur qazanmağa çalışmış, buna nail olmuşlar. Təsadüfi deyildir ki, məhz bu uğurlar nəticəsində universitəmiz nəinki respublikamızda, eləcə də beynəlxalq səviyyədə özünə layiqli yer tutmuşdur. Siyasət, iqtisadiyyat, hüquq, tibb, idman sahələrində tələbələrimizin adı həmişə ön sıralarda çəkilib.

Bu dəfə də Xəzər Universitəsinin 4 tələbəsi təhsil aldıqları ali məktəbə növbəti hədiyyələrini bəxş etdilər.

2008-ci il fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya 29 dövlət orqanı üzrə 476 vakant dövlət qulluğu vəzifəsinin tutulması üçün müsabiqə elan etmişdi. Müsabiqənin geniş miqyaslı, vakant yerlərin tutulması üçün müraciət edənlərin sayının daha çox olacağını nəzərə alaraq, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəhbərliyi sənəd qəbulu və sənədlərin ilkin emalı mərhələsində iştirak etmək üçün könüllülərin dəvəti üzrə mətbuatda elan vermişdi.

Həmişə öncül sıralarda olmağa adət etmiş Xəzər Universitəsinin tələbələri könüllü dəvətə ilkin səs verərək, bu prosesdə iştirak etmək üçün Komissiyaya müraciət etmişlər. Belə ki, Hüquq fakültəsinin tələbələri Natiq Heydərov, Asim Əsədov, Humanitar və sosial elmlər fakültəsinin tələbələri Sevda Məmmədova və Ziyafət Əliyeva müsabiqənin sənəd qəbulu və sənədlərin ilkin emalı mərhələsində əvvəldən axıradək iştirak etmişlər. Onlar vətəndaşlardan sənədlərin qəbulu, müsabiqədə iştirak edən şəxslərin say tərkibinin müəyyənləşdirilməsi, sənədlərin kompüterlə bazaya daxil edilməsi, müsabiqədə iştirak edən vətəndaşların sənədlərinin yoxlanılması, müsabiqədə iştirak etmək üçün buraxılış vərəqələrinin paylanılması, buraxılış vərəqələrini götürməyən şəxslərin məlumatlandırılması və s. kimi işlərdə könüllü kimi yüksək fəallıq göstərmişlər.

Elə bunun nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi saytında (www.dqmk.gov.az) Xəzər Universitəsinin könüllü tələbələrinə Komissiya rəhbərliyinin minnətdarlığı bildirilmişdir.

Tələbələrimizin bu nəcib işlərinə görə biz də onlara təşəkkür edir, onlara universitəmizin şərəfini daha böyük uğurlarla yüksəltməyi arzulayırıq.

Sərxan MƏMMƏDOV,
Xəzər Universitəsi
Tələbə Məclisinin prezidenti

Tələbə Məclisi «Gənclər mükafatı» ilə təltif edilib

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi 2 fevral - Gənclər günü münasibətilə 2007-ci ildə yüksək nailiyyətlər əldə etmiş yaradıcı və istedadlı gəncləri, eləcə də gənc liderləri «Gənclər mükafatı» ilə təltif edib. Müxtəlif sənət növləri və ayrı-ayrı nominasiyalar üzrə yüksək nəticələr qazanmış gənclərə «Gənclər mükafatı» və diplomlarla yanaşı, pul mükafatı da verilib.

Gənclər Günü münasibəti ilə və 2007-ci ildə qazandığı uğurlara görə Xəzər Universitəsinin Tələbə Məclisi də «Gənclər mükafatı» ilə təltif olunub.

Qeyd edək ki, Gənclər ili elan olunmuş 2007-ci ildə Azərbaycan gənclərinin fəal iştirak etdiyi yüzlərlə müsabiqə, festival, konfrans keçirilib. Bu tədbirlərin ən fəal iştirakçıları da Gənclər və İdman Nazirliyi tərəfindən "Gənclər mükafatı" ilə təltif olunublar.

Xatırladırıq ki, Gənclər və İdman Nazirliyi 1999-cu ildən bəri Gənclər Günü münasibətilə müxtəlif sənət növləri və ayrı-ayrı nominasiyalar üzrə fərqlənən gəncləri «Gənclər mükafatı» ilə mükafatlandırır. Laureatları müəyyənləşdirmək məqsədilə yaradıcı qurumlarla birgə komissiyalar formalaşdırılır və qaliblər müəyyənləşdirilir.

Xəzər Universitəsinin Tələbə Məclisini bu böyük nailiyyət münasibətilə təbrik edir, yeni-yeni uğurlar arzulayırıq!

"Xəzər Xəbər"

Cənubi Qafqaz Şərqlə Qərbin (və ya Avropa ilə Asiyanın) kəsişməsində yerləşir. XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılmasından sonra burada mövcud olmuş dövlətlər - Azərbaycan, Gürcüstan və Ermənistan öz müstəqilliklərini elan etdilər. Təbii olaraq, yeni dövlətlərin özlərinəxas problemləri (məsələn, Dağlıq Qarabağ, Cənubi Osetiya və s.) meydana çıxmağa başladı. O vaxtdan dövrümüzə qədər bəzi dövlətlərin separatizmi dəstəkləməsi nəticəsində burada yaşayan insanların həyatı təhlükə altına düşdü.

Bu səbəbdən Gənc Diplomatlar, Biznesmenlər, Alimlər və Hüquqşünasların Beynəlxalq Assosiasiyası NATO, TİKA, Türkiyənin Kültür və Turizm Bakanlığı Tanıtma Fondu, Gürcüstan Beynəlxalq Elmi Araşdırmalar Fondu, eləcə də digər regional və beynəlxalq təşkilatların dəstəyi ilə 2007-ci ildən başlayaraq hər il Cənubi Qafqaz və Avropa ölkələrində beynəlxalq konfranslar təşkil edir. Keçən il belə bir tədbir Türkiyənin İstanbul şəhərindəki Qalatasaray Universitetində təşkil olunmuşdu. Bu konfransın təşkilində əsas məqsəd müxtəlif ölkələrdə fəaliyyət göstərən gənc diplomatları, hüquqşünasları, tədqiqatçıları və s. bir yerə toplamaq, regionda mövcud olan problemləri onların köməyi ilə təhlil etmək və mümkün həll yollarını araşdırmaqdan ibarətdir.

CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİYİ TÜRKİYƏDƏN KEÇİR

Azərbaycanın və Gürcüstanın regionda və dünyada aparıcı dövlətlər sırasına keçməsi ermənilər narahat edir

Növbəti konfrans 2008-ci il martın 27-28-də Gürcüstanda - Tbilisi Dövlət Universitetində baş tutdu. Konfransa Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan, Rusiya, Ukrayna, Böyük Britaniya, Avstraliya və digər ölkələrdən xeyli iştirakçılar və rəsmi nümayəndələr dəvət olunmuşdu.

Azərbaycanı Xəzər Universitetinin Hüquq fakültəsinin tələbəsi Nicat İlyasov, Humanitar və sosial elmlər fakültəsinin tələbələri Elşən Rəhimov, Bəxtiyar Aslanov, Xəzər Universitetinin məzunu Mətin Əsgər, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Vüqar Əhmədli, Bakı Dövlət Universitetinin tələbələri Nadir Saraclı və İradə V., Qafqaz Universitetinin tələbəsi Vasif Qafarov, Azərbaycan Dillər Universitetinin tələbəsi Nicat Qarayev və məzunu Pərvin Vəliyeva, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Fərid Seyidov, Qərb Universitetinin tələbəsi Əli Əliyev və Əli Qarayev (bakalavr pilləsini Turkiyənin Boğaziçi Universitetində bitirmiş, magistr dərəcəsini Amerikada almışdır. Hazırda BP şirkətində işləyir) təmsil edirdilər.

Konfransdan bir gün əvvəl müxtəlif ölkələrdən gəlmiş iştirakçılar arasında fikir mübadiləsi etmək üçün nəzəri münaqişə haqqında simulyasiya (oyun) keçirildi.

Elə həmin gün konfransın rəsmi açılışını elan edən Gənc Diplomatlar, Biznesmenlər, Alimlər və Hüquqşünasların Beynəlxalq Assosiasiyasının prezidenti Akşin Əli bütün iştirakçıları və digər rəsmi qonaqları salamladı.

Sonra layihənin koordinatoru Nabat Qaraxanova qısa vaxt ərzində təşkilatın qazandığı uğurlar haqqında danışdı.

Rəsmi açılışdan sonra bütün dövlətlərin mədəniyyət gecələri təşkil olundu. Burada hər bir ölkənin nümayəndələri öz milli atributlarını, yeməklərini, şirniyyatlarını, içkilərini nümayiş etdirməli idi. Biz də Azərbaycanı layiqincə təmsil etmək üçün sözün əsl mənasında vahid bir komanda kimi hazırlaşmışdıq. Apardığımız bütün milli rəmzlər, ölkəmizdə istehsal olunan içkilər, şirniyyatlar və s. qonaqların ürəyincə oldu.



Mədəniyyət gecəsi hamı üçün eyni vaxtda başladı. Sevindirici haldır ki, Azərbaycan masası müsbət mənada digər xalqların, xüsusilə ermənilərin masasından çox fərqlənirdi. Biz bunu qonaqların bizim milli şirniyyat və içkilərimizə marağında da gördük. Hətta Ermənistandan olan iştirakçıların özləri də özümüzəməxsusluğumuzu etiraf edirdilər. Hər kəs Azərbaycan masasına yaxınlaşır və yadigar şəkillər çəkdirməyi təklif edirdi. Bu kiçik uğurumuza görə təşkilatçıların təşəkkürünü də eşitməkdən məmnun olduq. Təbii ki, bu bizim vətənimiz, millətimiz qarşısında mənəvi borcumuz idi. Həmin anlarda Azərbaycan üçün keçirdiyimiz sevinc hisslərini sözlə ifadə etmək qeyri-mümkündür.

Martın 28-də səhər tezdən artıq əsas mövzu ilə əlaqədar təqdimatlara və müzakirələrə başlanıldı. Mövzu geniş olduğuna görə bir neçə panelə bölünərək hissə-hissə müzakirə olundu.

Giriş paneldə əsas mövzu "Beynəlxalq təşkilatlar və Cənubi Qafqazda regional təhlükəsizlik ("International Organizations & South Caucasus in Terms of Regional Security and - NATO's role in South Caucasus: goals, challenges and means) idi. Burada Cənubi Qafqazda NATO-nun rolu, məqsədləri, təklifləri haqqında danışıldı. Bu paneldə Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semneby, NATO-nun Cənubi Qafqaz üzrə əməkdaşı Zbigniew Rybacki, ATƏT-in Gürcüstandakı nümayəndəsi Terry Hakala nitq söylədilər.



Birinci paneldə əsas mövzu "Cənubi Qafqazda "Şərq-Qərb ("East-West in the South Caucasus) idi. Burada rəsmi nümayəndələrdən prof. dr. H.Beril Dedeoğlu (Galatasaray University, Research Field: European Union, International Security and Strategy), Gürcüstan Beynəlxalq Elmi Araşdırmalar Fondunun prezidenti Aleksandr Rondeli, Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semneby çıxış etdilər.

İkinci panelin mövzusu isə "Ərazi bütövlüyünün tanınması: regional təhlükəsizliyin artması ("Recognition of the Territorial Integrity: Strengthening the Regional Security) adlanırdı. Spikerlər isə bunlar idi: hüquqşünas Erkin Qədirli (Lawyer, Member of the Caucasus - Caspian Commission), Gürcüstan Beynəlxalq Elmi Araşdırmalar Fondunun pezidenti Aleksandr Rondeli, Maya Barxudaryan (Civil Society Institute, Armenia, Founding member of CSI, Head of the Peacebuilding and Conflict Resolution Resource Center), prof. dr. Erhan Büyükakıncı (Qalatasaray Universiteti Araşdırma sahəsi: Beynəlxalq münasibətlər nəzəriyyəsi, Rusiyanın xarici siyasəti, Post-Sovet və Şərqi Avropa elmləri), Niklas Nilsson (Research Fellow, Institute for Security and Development Policy).

Üçüncü paneldə isə "Enerji Silahi: Cənubi Qafqaz dövlətləri "Enerji oyununda əsas oyunçulara çevrilirlər ("The "Energetic Weapon: South Caucasus States Becoming Major Players in the "Energy Game?) mövzusu müzakirə olundu. Bu paneldə mövzuya uyğun olaraq Cənubi Qafqazda - Azərbaycan və Gürcüstanda həyata keçirilmiş və keçiriləcək beynəlxalq və regional enerji layihələri haqqında danışıldı. Özünü bu cür layihələrdən təcrid etdiyi üçün, demək olar ki, bu paneldə Ermənistanın adı heç çəkilmirdi. Buna görə də Ermənistandan gələn nümayəndələr çox narahat idilər və bu çox aydın şəkildə özünü büruzə verirdi. Burada BP şirkətinin Gürcüstandakı nümayəndəsi Hugh Mc Dowell, Türkiyənin Gürcüstandakı səfiri Erhan Tezgor, prof. dr. Mesut Hakkı Caşın (Yeditepe Universiteti, Beynəlxalq Hüquq və Əlaqələr) çıxış edərək Azərbaycanın və Gürcüstanın əldə etdiyi uğurlardan danışdılar, bu iki dövlətin regionda və dünyada aparıcı dövlətlərin sıralarına keçmələri haqqında təqdimatlar etdilər.

Dördüncü panelin mövzusu isə "Qanuni sabit vəziyyətin saxlanması: Uzunmüddətli inteqrasiya sülhə əsaslanır? ("Keeping The Legal Status-Quo: A Long Term Integration Based Solution or a Time Bomb for the region?) idi. Əsas məruzəçilər dr. Eric Lepisto (NAR Consulting, Baku), prof. dr. Erhan Büyükakıncı (Qalatasaray Universiteti), dr. Güneyt Yüksel (Bosphorus University,Vice President of Economic Affairs in AK Party, Member of the Turkish Parliament), prof. KeesVan der Pijl (International Relations and Politics, University of Sussex, University of Sussex, Brighton, UK) idilər.

Konfransda diqqət çəkən məqamlardan biri də bu idi ki, həm simulyasiya oyununda, həm də konfransdakı müzakirələrdə azərbaycanlı tələbələr, o cümlədən Xəzər Universitəsinin tələbələri həmişə olduğu kimi öz faəllıqları ilə seçilirdilər.

Bəxtiyar ASLANOV,
Xəzər Universitəsi Humanitar və sosial elmlər fakültəsinin tələbəsi, Siyasi elmlər və beynəlxalq münasibətlər departamentinin üzvü

Cənab Leo Gher Amerika jurnalistikasında özünəməxsus iz qoyan qocaman müxbirlərdəndir. O öz yaradıcılığını əsasən media iqtisadiyyatı, media hüququ və siyasəti, media menecmentliyi üzərində qurmuşdur. Hazırda bu sahələr üzrə araşdırma və tədqiqatlarını davam etdirir. Bu istiqamətlərdə Avropa, Afrika, Asiya, Skandinaviya, Rusiya və Orta Şərqdə keçirilmiş bir sıra təlimlərin, konfransların və seminarların təşkilatçısı və aparıcısı olmuşdur.

Leo Gher Amerikanın İllinous Universitetinin professoru, həmin təhsil ocağının Media Menecmentliyi və Tədqiqat Mərkəzinin direktoru, eyni zamanda "Avery Media İnternational" mərkəzinin direktoru vəzifələrində çalışır. "Media menecmentliyi elmi və incəsənəti" kitabının müəllifidir.

Bu il iyun ayında Oksford Universitetində "Medianın təhlükəsizliyinin internet vasitəsilə təmin olunması" adı ilə geniş təqdimat mərasimi keçiriləcək.

Hazırda Azərbaycanda Amerika -Azərbaycan Jurnalistikası Akademiyasında dərs deyir.

Leo A.Gher: "MƏN ERMƏNİLƏRİ TANIMIRAM, ONLAR HAQQINDA HEÇ NƏ BİLMİRƏM!"

Tələbələr Amerika jurnalisti və müəllimini Azərbaycanla bağlı yetərincə məlumatlandırdılar

Hər bir xalqın özünəməxsus mədəniyyəti var. Bu mədəniyyətin yaşadılması və gələcək nəsillərə çatdırılması həmin xalqın dünyagörüşündən və zəngin mədəni irsindən soraq verir. Azərbaycanın orta məktəblərində şagirdlərə bütün xarici ölkələrin coğrafiyası haqqında məlumat verilir. Amma nədənsə bizə təşrif buyuran xarici ölkə vətəndaşlarının çoxunun dövlətimiz, xalqımız haqqında, demək olar ki, heç bir məlumatı olmur. Bu çatışmazlığı amerikalı jurnalist və müəllim Leo Gher-lə görüşdə bir daha hiss etdik. Sözsüz ki, vətənimizə ayaq basan hər bir əcnəbi vətəndaşı doğma Azərbaycanın tarixi və mədəniyyəti haqqında məlumatlandırmaq hər birimizin vətəndaşlıq borcumuzdur.

Xəzər Univesitəsi Humanitar və sosial elmlər fakültəsinin müəllimi Xəyalə Məmmədovanın dəvəti ilə bu il aprelin 14-də qonağımız olan Leo A.Gher auditoriyaya toplaşan tələbələrin diqqət mərkəzində idi. Qonağımızın bir jurnalist kimi Azərbaycan mədəniyyəti barədə nə bilməsi, bizi maraqlandıran suallara necə cavab verəcəyi bizim üçün çox önəmli idi.

Leo A.Gher dərsimizə xanımı ilə birgə təşrif buyurdu. Auditoriyaya daxil olarkən onun ilk növbədə Azərbaycan dilində "Salam verməsi diqqətimizdən yayınmadı. Daha sonra qonaq bizə Amerika mədəniyyəti və ədəbiyyatının incəlikləri, "Mətbuat dünyası, Jurnalistika hüququvə s. mövzular haqqında kifayət qədər dəyərli məlumatlar verdi.





"Sizcə, Azərbaycan necə bir diyardır?, "Xalqımız haqqında fikriniz necədir? kimi sualları qonağımız belə cavablandırdı: "Mən bir neçə aydır ki, Azərbaycandayam. Bu vaxt ərzində şəhərinizin bəzi yerlərini gəzmişəm, tarixi abidələrinizi görmüşəm. Qız qalasını daha çox bəyəndim. Azərbaycan xalqı insana çox dostcasına yanaşır və çox qonaqpərvərdir. Bakının küçələri ABŞ şəhərlərinin küçələrindən tamamilə fərqlənir. Çünki sizin küçələrdə hər kəs rahat və problemsiz gəzə bilir. Amerikada isə belə deyil, çox təhlükəlidir.

Leo A.Gher aradabir, Azərbaycan musiqisini dinlədiyini də bildirdi. Amerika musiqisi ilə Azərbaycan musiqisi arasında çox böyük fərq olduğunu söyləyən qonaq öz musiqilərinin tarixi haqqında məlumat verdi.

Amerikalı qonaq vətən uğrunda can qoymuş jurnalistlərimiz barəsində də məlumatı olduğunu qeyd edərək, Milli Qəhrəman Çingiz Mustafayevin adını xüsusi vurğuladı.

Biz tələbələrin nəzərindən yayınmayan müəyyən anlar da oldu. Nədənsə amerikalı jurnalist bəzi sualları anlamırmış kimi cavablandırmaqdan boyun qaçırırdı. Bəzi sualları isə başqa cür yozaraq əlaqəsi olmayan cavablar verirdi. Məsələn, tələbələrdən birinin Ermənistanla bağlı sualını cavablandırmaqdan boyun qaçırır, ona bu barədə kifayət qədər məlumat verəndə isə sakitcə, tərpənmədən, heç nə bilmirmiş kimi üzümüzə baxırdı. Sanki bu dövlət haqqında heç nə bilmir və Ermənistanın adını heç vaxt eşitməyib.

Tələbələrimizin Azərbaycan və Ermənistanla bağlı verdikləri məlumatı eşitdikdən sonra isə sözü ancaq bu oldu: "Gəlin, Ermənistandan danışmayaq! Çünki mən onları tanımıram və onlar barəsində heç nə bilmirəm.





Təbii olaraq biz onun dediyinə inanmadıq, ona görə də yenə suallar yağdırmaqda, bir çox mövzularla bağlı ona məlumat verməkdə davam edirdik.

Azərbaycan mədəniyyəti haqqında nə bildiyini soruşanda Leo Gher bu sualı cavablandıra bilmədi, vəziyyətdən çıxmaq üçün gülərək üzünü xanımına tutdu və cavab verməyi ona həvalə etdi. Ancaq təəssüf ki, xanımından da cavab ala bilmədik.

Bizi maraqlandıran Amerika-Azərbaycan ədəbi-mədəni əlaqələri ilə bağlı istədiyimiz cavabı almadığımıza görə onları bir Azərbaycan övladı kimi bütün sadaladığımız sahələr haqqında yetərincə məlumatlandırdıq.

Qonağımız bütün məlumatlara görə bizə təşəkkür edərək, tələbələrimizin bu cür hazırcavab olmasını, Amerikanın mədəniyyəti və tarixini onlardan daha yaxşı bildiklərini xüsusi vurğuladı, buna görə müəllimimiz Xəyalə Məmmədovaya minnətdarlıq etdi.

Dərsdən sonra qonağımız Xəzər Universitəsinin İngilis dili departamentinin müdiri Eldar Şahgəldiyevlə görüşdü. Eldar müəllim Xəzər Universitəsinin fəaliyyəti haqqında qonağımızı geniş məlumatlandırdı.

Qonaq Xəzər Universitəsinin tələbə və müəllim heyətinin öz savad və bacarıqlarına görə çox fərqləndiyini bildirərək, gələcəkdə bu cür tələbə və işçilərlə birgə çalışmaq istədiyini qeyd etdi, bu gözəl şəraitə görə ali məktəb rəhbərliyinə təşəkkür etdi.

Günay İLDIRIM,
Xəzər Universitəsi Humanitar və sosial elmlər fakültəsinin tələbəsi

BİR YARPAQ

KÖVRƏK XATİRƏ

... Məndən soruşsalar ki, Camal Mustafayev kimdir?

Cavab verərəm: o, adında olan beş sadə hərfin beşinin də böyük yazılmasına layiq olan İNSAN.

...Məndən soruşsalar ki, Camal Mustafayev nəçidir?

Dərhal cavab verərəm: FİLOSOF.

...Məndən soruşsalar ki, Camal Mustafayev hansı xasiyyətlərinə görə başqalarından fərqlənir?

Cavab verərəm: Sadəliyinə, təvazökarlığına, ziyalılığına... görə.

...Məndən soruşsalar ki, Camal Mustafayev daha hansı spesifik cəhətlərinə görə həmkarlarından, müasirlərindən fərqlənir, seçilir?

Çəkinmədən söylərəm: Paklığına, təmizliyinə, səmimiliyinə... görə.

...Məna, məzmun və mündəricəsinə görə...

Bu qəbildən olan mükaliməni uzatmaq da olar...

Bütün bunlarla yanaşı, zaman və məkan baxımından daha konkret mülahizə və müşahidələrimi də bildirmək istərdim.



Camal Mustafayev - 80

...Budur, ötən - XX əsrin 80-ci illərinin ikinci yarısı idi. Moskvada, M.V.Lomonosov adına Dövlət Universitetində altıaylıq ixtisasartırma kursunda idim. İşlə əlaqədar olaraq SSRİ Təhsil Nazirliyinə getmişdim. Nazirin birinci müavini, ixtisasca filosof olan, tanınmış həmkarım Yura ilə (familiyası yadımdan çıxıb) görüşməli idim. Salamlaşıb hal-əhval tutdum. Söhbət zamanı Yura məndən soruşdu:

- Как мой друг Джамал?

Bəli, nəhəng bir dövlətin nazir müavini Camal Mustafayevi xəbər alırdı.

Mən o zaman M.F.Axundov adına Azərbaycan Dillər İnstitutunda fəlsəfə kafedrasının müdiri işlərkən Camal Mustafayevin başına gətirilən mənfi, qərəzli hadisədən bir epizodu Yuraya söylədim. Elə bu anda Yura telefonun dəstəyini götürüb Bakıya zəng çaldı və söhbətinin axırında dedi:

- Земфира Насировна, есть такая пословица: "Вам не нужен, а нам нужен"...

...O zaman adını çəkdiyim institutun rektoru, professor Zemfira Verdiyeva Yuraya nə dedisə, mən onu bilmədim...

... Ancaq SSRİ təhsil nazirinin birinci müavini ilə bilavasitə onun da tabeliyində olan Azərbaycan Dillər İnstitutunun rəhbəri

Verdiyevanın mükaliməsindən bu qənaətə, məntiqi nəticəyə gəldim ki, Camal Mustafayevin Moskvada da çox böyük hörməti var imiş...

...Budur, 1991-ci ildə «Milli və millətlərarası münasibətlər kontekstində sekulyarlaşmanın xarakterik xüsusiyyətləri (Azərbaycan Respublikasının materialları əsasında fəlsəfi və sosioloji təhlil)» mövzusunda doktorluq dissertasiyamın avtoreferatının əlyazmasını redaktə etməyi Camal müəllimdən xahiş etdim. O, qısa müddət ərzində oxuyub, dəyərli qeydləri ilə avtoreferatımı mənə qaytardı. Özü də heç bir təmənna güdmədən.

...Bəli, xeyirxahlıq da Camal müəllimin ən xarakterik xüsusiyyətlərindən biridir. Onun belə xeyirxah əməllərinə aid yüzlərlə misal gətirmək olar.

...İş elə gətirdi ki, Bakı Dövlət Universitetində fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasında Camal müəllimlə birgə işləməli olduq. Dərin, geniş, hərtərəfli biliyə, zəngin erudisiyaya malik, ümumiyyətlə, fəlsəfəni, o cümlədən Şərq, ələlxüsus da Nizami Gəncəvinin ölməz poeziyasının fəlsəfəsini bilavasitə özünəməxsus mükəmməlliyi ilə bilən professor Camal Mustafayev qısqanclığın, paxıllığın ucbatından BDU-dan getməli oldu.

...Heyf və çox təəssüf!...

...Gözəl, pak, təmiz **İNSAN**, mehriban, səmimi **DOST**, həmkar olan Camal Mustafayevin dünyagörüşünün, dünyaduyumunun məğzini, onun leytmotivini və ana xəttini poeziyanın fəlsəfəsi, fəlsəfənin poeziyası təşkil edir.

Əziz, mehriban **İNSAN**, gözəl **FİLOSOF**, həqiqi vətəndaş, alim-ziyalı Camal müəllimə ən səmimi duyğularımın az bir hissəsini bu kövrək, bir yarpaq xatirədə bildirirəm!

Arzu edərdim ki, sağlığınızda yüz illiyinizə də xatirə yazam.

Hacı Əsədulla QURBANOV,
Bakı Dövlət Universitetinin professoru, fəlsəfə elmləri doktoru, İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin rəhbəri, «Qızıl Qələm» mükafatı laureatı

Elbəyi CƏLALOĞLU

CAMAL DƏDƏ

Professor Camal Mustafayevin 80 illik yubileyi münasibətilə

Bağçaya boylandın, bağlara qondun,
Eylədi çiçəklər naz, Camal Dədə!
Gün kimi parladın, Ay kimi doğdun,
Tələsdi ömrümə yaz, Camal Dədə!

Laylama vuruldun, dilimi sevdin,
Bayatı söylədin, elimi sevdin,
Pəsimi oxşadın, zilimi sevdin,
Coşdu ilhamından saz, Camal Dədə!

Qəlbinə sarmanıb Qorqudun ruhu,
Özünsən Tanrının Adəmi, Nuhu,
İtən torpaqlardan gələn günahı,
Yaz mənim boynuma, yaz, Camal Dədə!

Ey bizim çağların Xan Bayanduru!
Ceyhunu, Fəratı, İtili, Kürü.
Türkün qanı kimi şəffaf, pak, duru,
Oğuz, Qıpçaq, Xəzər, Uz Camal Dədə!

Borçalı elinə quruldu tələ,
Bağlandı belinə dərd şələ-şələ.
Əritmir qarını dağların hələ,
Sırsıra bağlayıb buz, Camal Dədə!

Türkün nüvəsidi Borçalı türkü,
Əritmədi onu nə od, nə bürkü,
Hopmadı canına alman, rus, gürcü,
Əlləşdi vuruşdu yüz, Camal Dədə!

Qoy öpüm əlini şərəfdir mənə,
Əsrlər ötsə də, dədəmsən yenə,
Elbəyi vicdanlı əsgərdir sənə,
Tez göndər əmrini, tez, Camal Dədə!

CAMAL MUSTAFAYEV - NURLU ZİYALI, VƏTƏNDAŞ ALİM, AĞSAQQAL PEDAQOQ

Ziyalılıq borcunu, alimlik borcunu, vətəndaşlıq borcunu, insanlıq borcunu, vəzifə borcunu, ağsaqqallıq borcunu dərk etmək, ödəmək hər kəsə nəsib olmur. Az-az ziyalı, alim, vətəndaş, insan, ağsaqqal tanıyıram ki, sadaladığım bu gözəl cəhətləri öz şəxsiyyətində cəmləşdirə bilsin. Bu gün həmin bu az şəxsiyyətlərdən bizimlə çiyin-çiyinə addımlayan və yaşayan, yazıb-yaradan, mötəbər elmi məclislərin yuxarı başında oturan insanların biri artıq səksən yaşını arxada qoymuş filosof, filoloq və pedaqoq, professor Camal Mustafayevdir.

Müasir Azərbaycan ziyalılığının ən qiymətli cəhətlərini özündə birləşdirən Camal müəllimin ibrətamiz ömür yolu, özünəməxsus yaradıcılıq uğurları, maraqlı həyat salnaməsi var. Bu qiymətli insan, alim, pedaqoq və ziyalı haqqında bildiklərini, gördüklərini, düşündüklərini dilə gətirmək, fikirləşmək, qələmə almaq ilk baxışda adama asan gəlsə də, əslində çox çətindir.

Asandır ona görə ki, Camal müəllim elmi araşdırmalarının ən maraqlısını, ən qiymətlisini dahi Azərbaycan şairi, dünya ədəbiyyatının klassiki Nizami Gəncəviyə həsr edib. Uzun illər müxtəlif ali məktəblərdə, elmi araşdırma mərkəzlərində gənc və istedadlı alim və pedaqoqların yetişməsi üçün xeyli əmək sərf edib, ötən illər ərzində xeyli sayda məqalə, kitab və monoqrafiya yazaraq, Azərbaycanda elmin, təhsilin inkişafı yolunda layiqli xidmətlər göstərib, müasir Azərbaycan ziyalılarının adını, şərəfini qorumaq kimi çox ləyaqətli bir vəzifənin öhdəsindən gəlməyi bacarıb.

Çətindir ona görə ki, Camal müəllim kimi böyük və bütöv insanlar barədə danışmaq, yazmaq üçün həmin insanların yaşadıqlarının, gördüklərinin, etdiklərinin, dediklərinin heç olmasa yarısını yaşayasan, görəsən, edəsən, yazasan, deyəsən. Həm də dözümlə, səbrlə, uzaqgörənliklə, müdrikcəsinə, aqilanə. Belə olmasa, dediyin də, yazdığın da reallıqla qovuşmaz, həqiqətlərlə uzlaşmaz. Ən azı dediklərin, yazdıqların Camal müəllim kimi insanların adına layiq olmaz.

Nədənsə, Camal müəllim kimi ziyalılarımızı görəndə mən sevinməklə bərabər, həm də kədərlənirəm. Sevinməyimin səbəblərini artıq sadaladım bu yazının ikinci abzasında. Kədərlənməyimin səbəbi isə ilk baxışda bəzilərinə adi görünsə də, əslində çox kədərli və ağrılı-acılıdır.

Nədir bu kədər, ağrı-acı? Bu, Borçalı kədəridir, Borçalı ağrı-acısıdır. Mən Borçalıdan olan çox adam tanıyıram. Lakin onların çoxunu görəndə nədənsə Borçalı heç yadıma düşmür. Amma hər dəfə Camal müəllimi görəndə Borçalı gəlir durur gözlərimin qabağında. Təbii ki, bunun da səbəbləri var. Əslində, mən Camal müəllimlə görüşəndə çalışıram ki, heç Borçalıdan söhbət açmayaq.



Çünki məhz Camal müəllimlə bu barədə danışanda, başqalarından fərqli olaraq bu söhbət onu çox narahat edir, səbrini tükəndirir, məhvərindən çıxarır. O qədər dərinliklərə gedib çıxır ki, bəzən hətta bu söhbəti saldığına peşiman olursan. Narahat olursan ki, Camal müəllimin ürəyinin yaralı yerinə kaş toxunmayaydın. Kaş bu qeyrətli, dözümlü, tədbirli insanı, ziyalını yaxşı mənada qıcıqlandırmayaydın. İstər-istəməz hövsələni basmağa çalışırsan. Nədənsə mən Camal müəllimi görəndə ulu və nəhəng Nadir şah Əfşarın bağışlanmaz səhvi - Ziyadoğlularının acığına tarixi Azərbaycan torpağı olan Borçalını gürcülərə hədiyyə etməsi yadıma düşür.

Camal müəllimi görəndə Şimal-şərqi Azərbaycan Dövlətini yaratmış və Borçalının şərq hissəsini gürcülərdən alaraq Gəncə xanlığına birləşdirən Fətəli xan, 1789-cu ildə Şəmkir qalasında Fətəli xanın Cavad xanla birlikdə Gürcüstan hökmdarı II İraklinin Borçalının bütünlükdə Gəncə xanlığına verilməsi Şimal-şərqi Azərbaycan Dövlətinin qərb ərazisinə birləşdirilməsi) barədə müqaviləyə imza atması yadıma düşür.

Camal müəllimi görəndə Ağa Məhəmməd Xan Qacarın (hələ şah seçilməmişdi) 1795-ci ildə gürcü çarı II İrakliyə hədə-qorxu dolu ultimatumu (həmin ultimatumdan sitat: "Sən (II İrakli - V.A.) yaşı doxsanı haqlamış adamsan, amma bağışlanmaz səhvlərə yol verirsən: kafirləri torpağına buraxmısan, onlarla birləşmisən və onlara istədikləri kimi davranmağa şərait yaradırsan.

...Bu əməllərdən (Gürcüstanda yaşayan Azərbaycan türklərinə və ümumən oradakı müsəlmanlara qarşı törədilən bəd əməllər də nəzərdə tutulur - V.A.) birdəfəlik əl çəkməlisiniz.

...Sən bizə öz sadiqliyini sübut etməlisən. Biz böyük ixtiyar sahibi olduğumuz üçün əgər ağıllı adamsınızsa, hazırkı niyyət və əməllərinizdən büsbütün əl çəkməlisiniz. Bu, yəqin ki, sənin ölkənin əhalisinin də ürəyincə olar. Əgər bu göstərişə əməl etməsən, onda çox qısa bir müddətə Gürcüstanın üzərinə yürüş edəcək, ruslarla bərabər gürcüləri də qılıncdan keçirəcək, qanınızdan Kür çayına bənzər bir qan çayı axıdacağıq) yadıma düşür...

Camal müəllimi görəndə XIX əsrin əvvəllərindən başlayaraq XX əsrin ortalarına qədər Borçalıda, Tiflisdə yaranan, inkişaf edən, çox şərəfli bir təkamül yolu keçən Azərbaycan milli mədəniyyəti, Borçalı ədəbi mühiti yadıma düşür...

Camal müəllimi görəndə öz tarixi-etnik, dədə-baba torpaqlarında yaşayan yarım milyon Azərbaycan türkünün 1989-1992-ci illərdə keçirdikləri ağır və sıxıntılı günlərini xatırlayıram...

Camal müəllimi görəndə mən bu gün Borçalıda, eləcə də Gürcüstanın digər bölgələrində yaşayan soydaşlarımızın həyat tərzini, dolanışığını düşünürəm...

Camal müəllimi görəndə qədim türk torpağı Borçalıda dünyaya göz açmış onlarla yox, yüzlərlə tanınmış, görkəmli yazıçımızı, alimimizi, ictimai xadimimizi, unudulmaz ziyalılarımızı xatırlayıram...

Bütün sadaladıqlarımla yanaşı, qeyd edim ki, hər dəfə Camal müəllimi görəndə həm də sevinirəm, ümidlənirəm, güvənirəm. Çünki bizim günlərdə Camal müəllim kimi aqil, dühalı, uzaqgörən ziyalılarımızın əməlləri, qorxmazlığı, uzaqgörənliyi nəticəsində Borçalıda, həm də Gürcüstanın digər ərazilərində yaşayan Azərbaycan türklərinin layiqli yaşlı nəsli ilə onların əməllərini, xeyirxah işlərini, xoş niyyətlərini bərabər davam etdirən orta və yeni nəsil də yetişib və yetişməkdədir...

Müdrikliyin, aqilliyin çəkisini dərk etmək, bu ləyaqəti çiyinlərdə daşımaq, həm də şərəflə daşımaq çox ağır işdir. Bunu bacaranlar elə bu cəhətlərinə görə də müdrik və aqil olurlar. Elə professor Camal Mustafayev kimi.

Yaşamağınıza da, yaratmağınıza da yaşınız mane ola bilməz, Camal müəllim! Sizin kimi aqillərin, müdriklərin cismani varlığı həyat məktəbidir, elm məktəbidir, bilik məktəbidir, insanlıq məktəbidir. Siz çox işdə, çox məsələdə həm yaşıdlarınıza, həm də Sizdən cavanlara nümunə olmusunuz.

İnanıram ki, hələ bundan sonra da çox yaşayıb, çoxlarına nümunə olacaqsınız.

Çox yaşayın ki, çoxlarını sevindirəsiniz!

Vaqif ARZUMANLI,
İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Elmi Araşdırmalar Mərkəzinin Prezidenti, professor

Mənim stolüstü kitablarımdan biri belə adlanır:

«Bu dünyaya nə gətirdim...»



Bunun səbəbləri var. Hər şeydən əvvəl, ona görə ki, həmin kitabı hər dəfə vərəqləyəndə müasir Azərbaycan ziyalılarının görkəmli nümayəndələrindən birinin - Hamlet Isaxanlının ömür yolunun bəzi səhifələrini bir daha izləyirəm.

Eyni zamanda, mən bu kitabda müasir Azərbaycanımızın tanınmış elm və təhsil qurucusunun əməllərinin təcəssümünü görürəm.

Müasir dövrümüzün riyaziyyatçı aliminin uğurlarının sirlərinə bələd oluram. Çox maraqlı əsərləri ilə seçilən şair və tərcüməçinin bədii yaradıcılıq salnaməsini vərəqləyirəm.

Müasir dövrdə humanitar və sosial elmlər üzrə bacarıqlı tədqiqatçının araşdırmalarına nəzər salıram.

Tanınmış pedaqoq və naşirin uğurlarının şahidi oluram.

Ən böyük səbəblərdən biri isə odur ki, bəhs etdiyim kitabın müəllifi mənim sevimli tələbəm və istedadlı həmkarım Knyaz Aslandır.

Və nəhayət, xatırladığım kitabın əsas leytmotivi məni həm qane edir, həm də sevindirir. Həmin üç abzaslıq məzmun isə bundan ibarətdir:

«Dünyada elə şəxsiyyətlər var ki, onların bənzərsiz həyat və fəaliyyəti öz zənginliyinə görə saysız-hesabsız insanların ömür yolundan seçilir.

Fitri istedada malik olan, Tanrı vergisinə layiq görülən belə insanlar bir ömürdə sanki bir neçə ömür yaşayır, məşğul olduqları bütün sahələrdə uğurlar qazanır, özündən sonra gələn nəsillər üçün örnəyə çevrilir və qədirbilən insanların qəlbində özlərinə mənəvi abidə ucaltmağı bacarır.

Öz fəaliyyəti boyunca qazandığı elmi nailiyyətləri, maarifçiliyi və bədii yaradıcılığı, humanist insani keyfiyyətləri, tükənməz qurub-yaratmaq eşqi, sözü, əməli və ziyalılığı ilə geniş ictimaiyyətin dərin hörmət və məhəbbətini qazanmış belə nadir şəxsiyyətlərdən biri professor Hamlet İsaxanlıdır».

Fikirləşirəm ki, bu cür dəqiq, obyektiv və sərrast cizgilərə, əməllərə, əqidəyə, uğurlara malik alimin, pedaqoqun, elm təşkilatçısının, yaradıcı insanın bədii və yazılı portretinə daha nələri əlavə etmək olar?!

Elə bu məqamda Hamlet müəllimin son illərdə elm, təhsil, naşirlik, xeyriyyəçilik, bədii yaradıcılıq sahəsində qazandığı uğurlar yadıma düşür. Bu uğurlar isə çoxdur...

Dünyanın ən nüfuzlu və tanınmış elm və təhsil ocaqlarının kürsülərindən səsi-sorağı gələn, Avropanın və Amerikanın məşhur və tanınmış elm və təhsil qurumlarının fəxri üzvü kimi böyük nüfuz qazanan, bir vaxtlar (1990-1991-ci illər) respublikamızda ilk ingilisdilli universiteti yaradan və ölkəmizdə təhsil sahəsində müasir və keyfiyyətli islahatlar keçirən, əsərləri dünyanın bir sıra xalqlarının dillərində işıq üzü görən professor Hamlet İsaxanlının son illərdə elm, təhsil və bədii yaradıcılıq sahələrində qazandığı uğurları bir yazıda sadalamaq həqiqətən mümkün deyil. Amma çox vacibdir, lazımdır...

Çünki görüb-götürmək heç vaxt gec deyil və hamı üçün faydalıdır. Biz ziyalıların borcu isə cəmiyyətimizi, elmimizi, təhsilimizi, ədəbiyyatımızı, mədəniyyətimizi daima irəli aparmaq, inkişaf etdirmək istiqamətində yorulmadan çalışmaqdan, cəhd göstərməkdən ibarətdir. Bax, elə bu məqamlarda çoxumuzun Hamlet müəllimdən öyrənməyə, görüb-götürməyə kifayət qədər qiymətli nümunələr - cəhətlər, xüsusiyyətlər var. Təbiidir ki, biz ilk növbədə Hamlet müəllim kimi ziyalıların əməllərinə, uğurlarına layiqincə qiymət verməli, həm də öz növbəmizdə biz də bu istiqamətlərdə bacardığımızı əsirgəməməliyik. Onda elmimiz də, təhsilimiz də, ədəbiyyatımız da, mədəniyyətimiz də mütləq yeni-yeni uğurlar, təkcə uğurlar yox, çox şeylər qazanar, inkişaf edər və zənginləşər. Bunu hamımız bilməli, hamımız bacarmalıyıq.

Əgər biz ziyalıyıqsa!

Əgər biz vətənpərvəriksə!

Əgər biz Azərbaycanımızı dünyada tanıtdırmaq istəyiriksə!


Və nəhayət, əgər biz əsl ziyalı qədrini bilib, ona qiymət verməyi bacarırıqsa!!!

Vaqif ARZUMANLI,
Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun «Xarici ölkələr ədəbiyyatı və ədəbi əlaqələr» şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor






VII AUDİOVİZUAL FESTİVALIN ƏKS-SƏDASI



Xəbər verdiyimiz kimi, Azərbaycan Professional Kinorejissorlar Gildiyası ənənəvi olaraq hər il beynəlxalq audiovizual festival keçirir. Ötən il Zuğulbada yerləşən "Gənclik" istirahət və turizm mərkəzində baş tutmuş VII Beynəlxalq Audiovizual Festival noyabr ayının 20-dən 24-dək davam etmişdi.

Xatırladırıq ki, Mədəniyyət və Turizm Nazirliyinin, İdman və Gənclər Nazirliyinin təşkilatçılığı ilə keçən bu məhsuldar festivalda dünyanın 18 ölkəsindən 223 audiovizual məhsul nümayiş etdirilmişdi.



2001-ci ildə Professional Kinorejissorlar Gildiyası tərəfindən əsası qoyulan, "Gənc peşəkarlar" adı altında keçirilən festivalın təşkilat komitəsindən verilən məlumata görə, tədbir əhatə dairəsini bir qədər də genişləndirmişdi. Belə ki, beynəlxalq statuslu yarışmaya müntəzəm olaraq qoşulan Gürcüstan, Qırğızıstan, Özbəkistan, Ukrayna, Rusiya, İran, Türkiyə, Almaniya, Estoniya kimi ölkələrlə yanaşı, Braziliya, Portuqaliya, Polşa, Sloveniya, Pakistan və ABŞ-dan da audiovizual işlər daxil olmuşdu.



Bədii, cizgi, sənədli filmlər, televiziya müəllif verilişi, klip, video-art, reklam, kompüter qrafikası və tələbə işi nominasiyaları üzrə aparılacaq müsabiqənin münsiflər heyətinə kinosahəsində məşhur olan sənətkarlardan Ramiz Fətəliyev (sədr), Əbdül Mahmudov, Ülvi Mehdi, Nurlana Kazımova, Aygün Aslanova (hamısı Azərbaycan), Yaroslav Lupiy (Ukrayna), Məssud Fərasəti-Pur (İran), Qalian Adamoviç (Belorusiya) və Dövlət Xudanazarov daxil idi.





Filmlərin baxışından sonra əvvəlcədən müəyyən olunmuş kateqoriyalara əsasən gizli səsvermə keçirilmiş, festivalın sonuncu günü media nümayəndələri üçün mətbuat konf-ransı keçirilmiş, qaliblər diplomlarla təltif olundular. Festivalda, hər il olduğu kimi Xəzər Universitəsinin tələbələri də fəallıq göstərdilər. Bu dəfə universitəmizin tərcüməçi kimi Humanitar və sosial elmlər fakültəsinin tələbələri Sevda Kələşova və Pərvin Abdullayeva, Təhsil fakültəsinin tələbələri Elnarə İsmayılova və Ülviyyə Daşdəmirova təmsil edirdilər.

liflərin VII Beynəlxalq Audiovizual Festivalında nümayiş etdirilən filmlərin sinxron tərcüməsinə (ingilis-Azərbaycan, azərbaycan-ingilis) görə Xəzər Universitəsinin tələbələri Pərvin Abdullayeva, Ülviyyə Daşdəmirova, Sevda Kələşova və Elnarə İsmayılovaya yüksək səviyyəli peşəkar fəaliyyətlərinə görə təşəkkür edilir, universitənin rəhbərliyinə isə bu imkanı yaratdığı üçün minnətdarlıq bildirilir.

Biz də öz növbəmizdə tələbələrimizi ürəkdən təbrik edir, onlara yeni-yeni uğurlar arzulayırıq!

"Xəzər Xəbər"

***



Bu günlərdə VII Beynəlxalq Audiovizual Festivalın təşkilat komitəsinin sədri Hüseyn Mehdiyev Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlıya təşəkkür məktubu göndərmişdir. Məktubda 2007-ci il noyabrin 20-24-də Professional Kinorejissorlar Gildiyasının, Mədəniyyət və Turizm Nazirliyinin, İdman və Gənclər Nazirliyinin təşkilati dəstəyi ilə keçirilən gənc müəl-



Azərbaycanın görkəmli maarifpərvər ziyalısı Məhəmməd Tağı Sidqi yazırdı: "Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir".

Bu isə Türkiyənin böyük dövlət xadimi Mustafa Kamal Atatürkün sözləridir "...Millətləri azad edənlər yalnız və yalnız müəllimlərdir. Müəllimdən, maarifdən məhrum bir millət hələ millət adını daşımağa layiq deyildir. Ona adi kütlə deyirlər. Bir kütlənin millət ola bilməsi üçün mütləq yaxşı müəllimlərə möhtacdır".

Dünyada minlərlə sənət, minlərlə peşə olsa da, bu günlərdə 70 yaşına gözaydınlığı verən Sahib Rzayev ömrünün 40 ilini müqəddəs müəllimlik peşəsinə həsr edib. Atalar gözəl deyib: "Niyyətin hara, mənzilin ora". Bu baxımdan müqəddəs müəllimlik peşəsinə sonsuz məhəbbəti onu ali məktəblərin öncülü olan Bakı Dövlət Universitetində tanınmış pedaqoq alimlərin sırasına gətirib çıxarıb.

MÜƏLLİMLİK UCALIĞI

40 ildir müəllim adını şərəflə daşıyan və minlərlə tələbəyə örnək olan kitabxanaşünas alim Sahib Rzayev ömrünün 70-ci baharından gəncliyə iftixarla boylanır

Ciddi, işgüzar, qayğıkeş bir pedaqoq kimi tanınan Sahib Rzayev bilikli kitabxanaşünas-biblioqraf mütəxəssislər yetişdirilməsi üçün var qüvvəsi ilə çalışır desək, bəlkə də azdır, bunun üçün gözünün nurunu, qəlbinin odunu, ömrünün ən gözəl çağlarını sərf eləyir.

Daşnak ordusunun XX əsrin əvvəllərində Zəngəzurda törətdiyi vəhşiliklərdən ən dəhşətlisi «Tat qırğını»dır. Andranikin quduzlaşmış ordusunun Tat kəndində törətdiyi vəhşiliklər heç bir müharibə tarixində görünməmişdir.

Bu döyüşdə azərbaycanlılar balta, yaba, ağac, daşla şücaət göstərsələr də, müasir silahlarla silahlanmış erməni dəstələrinin qarşısını ala bilməmişlər. Daşnaklar camaatın bir hissəsini kahalara (zağalara) doldurub yandıraraq öldürüblər, qalanlarını isə əsir aparıblar.

Əsir aparılan qadın və qızların saçlarını kəsdirib kəndir toxutdurub, ağlasığmaz işgəncələr verdikdən sonra çılpaq-çılpaq ağaclardan asdırıblar.

Sağlam görünən kişi və qadınların başlarını kəsib qanlarını xüsusi qablara doldurublar.

Yetmiş uşağın qarnına süngü soxub yolboyu işarə daşları kimi düzüblər.

Qədim yazılı bir daşı Ermənistana aparmaq üçün 20 nəfər Tat kişisini arabaya qoşublar.

Tat qırğınının axşamı Andranik Abdallardan Şuşaya keçmək üçün Sultan bəydən yol istəyir. Belə bir vaxtda Sultan bəy Şuşa quberniyasında işləyən çox ağıllı, müdrik zəka sahibi olan qardaşı general Xosrov bəylə məsləhətləşir və Andranikə bildirir ki, onun Qarabağa yürüşünün təhlükəsizliyini təmin etmək üçün bir qədər silaha ehtiyac vardır.

Baş vermiş Zabıx döyüşündə Andranikin özünün vermiş olduğu silahlarla Sultan bəy daşnaklara ibrət dərsi olsun deyə 30 min erməni əsgərini quzğunlara yedirtirir, 61 sərkərdənin başlarını kəsdirib Hacısamlı meşəsində saxlatdırdığı şirlərə atdırır. Verilən məlumatlara görə Zabıx çayı bir müddət qan axırmış.

Zabıx dərəsindəki məğlubiyyətdən sonra Andranik əyninə çuxa geyinərək iki uşaqla qaçarkən qəflətən döyüş yerinə gələn Sultan bəylə qarşılaşır. Tələyə düşdüyünü bilən Andranik erməni xislətini işə salaraq Sultan bəyə yaltaqlanmağa başlayır və deyir ki, «...sizdən xahiş edirəm qoymayın uşaqları öldürsünlər». Cavabında Sultan bəy deyir ki, «...sizinkilərin Zabıx yaxınlığında 70 Tat uşağının qarnına süngü soxub öldürdüyünü eşitmisən»?

Deyilənlərə görə, davamlı olaraq qələbə xəbəri eşidən Sultan bəyin ovqatı yaxşı olub. O, gülümsər halda ayaqlarını aralı qoyub deyir: «Gəl keç». Andranik əyilib Sultan bəyin ayaqlarının arasından keçir. Andranikin arxasınca getmək istəyənləri isə saxlayır və deyir ki, «...onun qulağını türklər kəsmiş, mənimsə ayağımın arasından keçmişdir. O, Azərbaycana heç nə eləyə bilməz....»

Bütün bu qələbələrdə Sultan bəylə bərabər Zəngəzurun qəhrəman övladlarının da xidmətləri az olmamışdır. Onlardan Seyid Həmid, Temir yüzbaşı, Fətulla, Həmzalı, Balakişi, Novruzoğlu Məhəmməd, Mişnili Qənbər, Həbib, Salman və başqalarını göstərə bilərik.

Andranikdən sonra Zəngəzur, eləcə də bütün Azərbaycan üçün daha bir təhlükə yarandı. Mikoyan Zəngəzurda mal-qara saxlamağı bacaranlardan başqa hər kəsi qırdırdı. Hamı kimi Sultan bəyin və ailəsinin həyatı üçün də təhlükə yarandı. Sultan bəy Azərbaycan İnqilab Komitəsinə müraciətinə ümidverici cavab ala bilmədiyindən İran şahına üz tutdu. Şah İranda Rusiyanın erməni agentlərinin çox olduğunu bildirib Türkiyəyə müraciət etməyi məsləhət bildi. Türk dövləti hər iki qardaşı - Sultan bəylə Xosrov bəyi rəsmi keçidlə qarşılayıb Ərzurum vilayətində mülk və malikanə verərək təhlükəsiz həyat şəraiti ilə təmin etdilər.

Arif İBRAHİMOV,
Xəzər Universitəsi nəzdindəki "Dünya"" məktəbinin tarix müəllimi

ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA KİTABXANALARIN NÖVLƏRİ VƏ QURULUŞU

Araşdırma

Azərbaycanın islam dininin qəbulundan sonrakı inkişafı dövründə kitabçılıq və kitabxanaçılıq sənətində müəyyən ümimilik müşahidə edilirdi. VIII-X əsrlərdə Azərbaycan ərazisində yaradılmış kiçik kitabxanalar əsasən məscid və mollaxanaların, məktəb və mədrəsələrin nəzdində təşkil edilmiş, onların quruluşu son dərəcə sadə olmuşdur.

X-XI əsrlərdən başlayaraq islam Şərqində böyük emalatxanaları olan, geniş kitab fondunu özündə toplayan zəngin kitabxanalar mövcüd idi.

XII-XIII əsrlərdə Azərbaycanda böyük kitabxanalar yaradılırdı. Bu tip kitabxanaların quruluşu da bir qədər mürəkkəb idi: 1-ci şöbə kitabların yazılması, səhifələrin tərtibatı, miniatürlərin çəkilməsi işi ilə məşğul olurdu; 2-ci şöbə kitabların səhhaflığını, cildlənməsini təmin edir və onu kitab halına salırdı; 3-cü şöbədə kitablar saxlanılır və kitab xidməti təşkil olunurdu.

Həmin emalatxanalarda nəqqaş və müzəhhiblərə nəqqaşbaşı, xəttatlara baş xəttat, səhhaflara isə baş səhhaf rəhbərlik edirdi. Bu vəzifələr əsasən hakimlər tərəfindən təyin olunurdu. Kitab fondu kitabxananın kiliddarının ixtiyarında idi və bütün bu kitabxana təsərrüfatına "kitabdardeyilən kitabxana müdiri rəhbərlik edirdi. Bu vəzifələr də hakimlər tərəfindən fərmanla təyin olunurdu. Əsasən şöhrət tapmış sənətkarlar bu vəzifələrə təyin edilirdilər. Onlara adətən saray həyatına xas olan təxəllüslərlə yanaşı "xoşnəvis, "xoşxətt, "zudnəvis və s. kimi təxəllüslər də qoyulurdu.

XVI əsrin əvvəllərinə qədər böyük kitabxanaların belə quruluşu qorunub saxlanılmışdır. Daha sonra kitabxanaların daxilindəki bu emalatxanalar böyüyüb genişləndirilmiş və kitabxanadan ayrılaraq "darülsənaye adı ilə müstəqil fəaliyyət göstərmişdir. Şah İsmayılın dövründə fəaliyyət göstərən Təbriz "Darülsənayesi Şah Abbas zamanı İsfahana köçürülmüş və buna oxşar digər darülsənayelərin təşkili kitabxanaların kitab fondunu zənginləşdirmək məqsədi daşımışdır. Burada hazırlanmış kitablar satılmır, yalnız vəqf olunurdu.

Hələ Ağqoyunlular zamanı saray kitabxanalarında da belə bir kitab sənaye ocağı olmuşdur. Lakin Şah İsmayıl dövründə bu iş mənbələrdə tez-tez xatırlanır. Şah Abbasın hakimiyyəti dövrünə qədər əsasən kitabxanaların nəzdində olan bu kitab sənaye ocağının adı mənbələrdə fars əyalətinin hakimi İmamqulu xanın Şirazda darülsənaye yaratmasından sonra müstəqil çəkilir.

Bu hadisəni mənbələr belə işıqlandırır ki, ölkənin Şərqindən əfqanların basqınları nəticəsində Məşhədin müqəddəs "Astanaye Qods məqbərəsinin kitabxanası qarət olunur. Yəqin bu məqsədlə də İmamquluxan Şirazda darülsənaye yaradır və kitablar Şah Abbasın kitabxanasına daxil olur. Yəqin ki, Şah Abbas bu kitabları sonra özü ayrı-ayrı kitabxanalar arasında bölüşdürür. Şah Abbasın çağırışından sonra bir çox Səfəvi şahzadələri "Astanaye Qods məqbərəsi kitabxanasına kitablar vəqf edir.

Tədqiqatçı R.H.Fərrux da Şah Abbas sarayının alimlərindən biri olan böyük şəxsi kitabxanaya malik Məhəmməd İbn Əli İbn Xatunun adını külli miqdarda kitab vəqf edənlərin sırasında göstərmişdir. O qeyd edir ki, İbn Xatunun vəqf etdiyi kitablardan 5740 nüsxəsi "Astanaye Qods kitabxanasında saxlanılır. Bu kitabxananın kitab fondunun bərpasına Şah Abbasın göstərdiyi qayğı haqqında R.H.Fərrux daha bir fakt göstərir: "...O vaxt ki, əfqanlar Məşhəd şəhərini qarət etdilər və "Astanaye Qods kitabxanasını oğurlayıb apardılar, Şah Abbas onlara qalib gəldikdən sonra kitabxananı bərpa etmək fikrinə düşdü. O, Şeyx Bəhaini bu işə məsul etdi və bu kitabların tapılması və alınması üçün bir miqdar da ayrıldı. Şeyx Bəhainin özünün də zəngin kitabxanası olmuşdur. Əldə olan məlumata görə, Şah Abbasın tapşırığı ilə o, 2 il müddətində "Astaneye Qods kitabxanasının kitab fondunu bərpa etmişdir.

Dövlət əhəmiyyəti olmayan kitabxanaların quruluşu sadə olsa da, onun təşkili üçün üç şərtin təmin olunması vacib idi:

1. Kitabxana üçün binanın və ya yerin ayrılması;

2. Kitab fondunun ayrılması;

3. Kitabxanaya məsul olan şəxsin təyin edilməsi.

Orta əsr Azərbaycan kitabxanalarında toplanmış zəngin kitab sərvəti dil və mövzu cəhətdən rəngarəng olmuşdur. Kitablar dil xüsusiyyətinə, mövzü xüsusiyyətinə və kitabın növünə görə ayrılmışdır. Ərəb, fars, türk, Azərbaycan dillərində kitablar fondun əksəriyyətini təşkil etmişdir. Erkən orta əsrlərdə Azərbaycan kitabxanalarında antik mədəniyyət nümunələrindən pəhləvi, yəhudi, yunan dillərində də kitabların olması məlumdur. Fondun əsas hissəsini Quran, Qurana yazılmış təfsirlər, hədislər, şərhlər və dini dərsliklər təşkil etsə də, riyaziyyata, astronomiyaya, coğrafiyaya, tibbə, həndəsəyə aid kitablar, bədii ədəbiyyat nümunələri də kitabxanalarda saxlanılırdı. Kitab külliyyatlar, divanlar, cünglər, təzkirələr, xəritələr, albomlar kimi növlərə ayrılırdı. Kitabxanaların daxili quruluşu haqqında A.Adam Oleari xatirələrində qiymətli məlumat verir. O,

Şeyx Səfi məqbərəsi nəzdindəki kitabxananı təsvir edərək yazır: "...kitablar müxtəlif şkaflarda qayda ilə düzülməmiş, bir-birinin üstünə yığılmışdır. Əksəriyyəti ərəb, bir hissəsi isə fars və türk dillərində, çox səliqə ilə perqament və kağız üzərinə yazılmışdır. Tarixi kitablara rəsmlər əlavə olunmuş, cildləri safiyandan çəkilmiş və qızıl gül yarpaq səhnələri ilə bəzənmişdir.

Şübhəsiz, Adam Oleari kitabxanada kitabların saxlanılma prinsipini başa düşmədiyinə görə "qayda ilə düzülməyib deyə qiymətləndirir. Əslində, kitabların yan-yana deyil, üst-üstə düzülüşü Şərq kitabxanalarında qəbul olunmuş qaydadır və əlyazmaların uzun müddətə qorunması məqsədi daşımışdır.

Orta əsr Azərbaycan kitabxana mədəniyyətini əsasən bu cür qruplaşdırmaq olar:

1. Saray kitabxanaları;

2. Məscid və mədrəsə kitabxanaları;

3. Şəxsi kitabxanalar.

Saray kitabxanalarının təşkili əsasən ənənəvi xarakter daşımışdır. Sarayların nəzdində fəaliyyət göstərən kitabxanalar, hər şeydən əvvəl, şahların şəxsi təşəbbüsü ilə meydana gəlmiş, onun hansı həcmdə olması, xarakteri, funksiyası şah və hakimlərin şəxsiyyətindən çox asılı olmuşdur.

Azərbaycan tarixindən məlum olan ilk saray kitabxanası Mənuçöhrün Gəncədə təşkil etdiyi kitabxana hesab edilə bilər. Şübhəsiz, bundan da əvvəl saraylarda kitabxanalar olmuşdur. Belə ki, şahlara kitablar hədiyyə etmək, onların adlarına əsərlər ithaf etmək daha qədimdən mövcud idi və bu bir ənənəyə çevrilmişdi. Fəqət Mənuçöhrün şəxsiyyəti haqqında məlumat belə fikir yürütməyə əsas verir ki, onun sarayında toplanmış şairlər, alimlər, xəttat və rəssamlar nəinki kitabxananın fondunu zənginləşdirməklə məşğul olmuş, eləcə də oradan istifadə etmiş, faydalanmışlar. Şübhəsiz, sarayda fəaliyyət göstərən şairlər məclisi də kitabxanadan istifadə etmişdir.

Artıq XV-XVII əsrlərdə saray kitabxanası məfhumu şahların şəxsiyyəti çərçivəsindən çıxaraq bilavasitə ənənə halına düşmüş, sülalələrin bir-birini əvəz etməsinə, paytaxtların dəyişməsinə baxmayaraq, kitabxanalar toxunulmaz qalmış, yeni tikilən saraylarda kitabxanalar təşkil olunmuşdur.

Saray kitabxanaları tədricən quruluş etibarilə də genişlənirdi. Saraylara cəlb olunmuş rəssam, xəttat, cildçilər əsasən kitabxana ətrafında birləşirdi. Kitabxana əsasən üç hissədən ibarət idi, daha doğrusu, işini üç şöbə vasitəsilə təşkil edirdi. Şərq ölkələrində kitabxanaların, xüsusilə saray kitabxanaları müdiriyyətinin görülən işlər haqqında vaxtaşırı məlumat verməsi barədə mənbələrdə məlumatlara rast gəlirik. Ona görə də, cəsarətlə deyə bilərik ki, Azərbaycanda mövcud olan saray kitabxanalarında da bu metoddan istifadə edilmişdi. Kitabxananın iş prosesi o dərəcədə mürəkkəb olmuşdur ki, Nəsirəddin Tusi Marağa Rəsədxanası kitabxanasına, Rəşidəddin Fəzlullah Rəbi-Rəşidi Universiteti kitabxanasına şəxsən rəhbərlik etmişlər. Şahlar və hakimlər isə bu məqsədlə görkəmli alim, xəttat və rəssamları bu işə cəlb etmişlər.

Kitabxananın daxili quruluşu əsasən üç şöbədən ibarət olmuşdur:

1. Kitab hazırlayan şöbə;

2. Kitab cildlənən şöbə;

3. Kitab saxlanılan şöbələr.

Saraylarda hazırlanan kitablar ümumi kitab istehsalının böyük bir hissəsini təşkil edirdi. Saray kitabxanalarının açıq kitab bazarı vasi təsilə, vəqflərlə yanaşı kitabxana emalatxanasında istehsal olunan kitablarla komplektləşdirilməsi də geniş yer tuturdu. Tədqiqatçı E.Salmanov da bu fikri təsdiq edərək yazır: "Saray kitabxanalarında kitab istehsalı müntəzəm şəkildə aparılır və bu işə kitabdar adlanan kitabxana müdiri başçılıq edirdi. Ümumiyyətlə, saray kitabxanasında fondun komplektləşdirilməsi işi bütün istiqamətlərdə aparılır və nəticədə böyük, nadir kitab fondu formalaşırdı.

Özündə bir neçə kitabsaxlayıcını birləşdirməklə, eləcə də xidmət funksiyasını daşıyan kitabxanaya rəsmi dövlət fərmanı ilə vahid müdiriyyət təyin olunurdu. Bu kitabxanalar kitabın hazırlanması, yəni üzünün köçürülməsi, tərtibat verilməsi, cildlənməsi, saxlanılması, mübadilə edilməsi, oxunuşunun təşkili, mühafizəsi və hətta bəzən tərcümə işlərinin də həyata keçirilməsi ilə məşğul olmuşdur. Kitabxanaya rəhbərlik edən kitabxananın müdiri - usta, alim və ya sənətkar sarayın hörmətli şəxslərindən hesab edilirdi.

Saraylarda olan kitabxanaların xidmət işi, təsnifat sistemləri, fondun kataloq və kartotekaları barədə məlumatın son dərəcə az olmasına baxmayaraq, müəyyən nəticələr çıxarmaq mümkündür. Kitabxanalarda kitab fonduna rəhbərlik edən kitabdarlar geniş mütaliəyə və gözəl hafizəyə malik şəxsiyyətlər olmuşlar. Fəqət bu da çoxsaylı kitab fondunu yadda saxlamağa, lazım olan vaxt istənilən ədəbiyyatı fonddan tapıb üzə çıxarmağa kifayət etmir. Deməli, böyük kitabxanalarda münasib təsnifat sistemləri də mövcud olmuş, şübhəsiz, məlumat aparatı da təşkil edilmişdir.

Abbas İqbal "Tarixe-müfəssəle-İran"əsərində qeyd edir ki, Rəşidəddin öz kitabxanasında olan əsərlərin siyahısını tutdurmuşdur və həmin siyahının adı "came-təsanifi-Rəşidi adlanır. Siyahının hansı məqsədlə tərtib olunması məlum deyil. Bu siyahı həm mühafizə məqsədi ilə, həm kitabxanadan istifadəni asanlaşdırmaq üçün məlumat aparatı kimi və ya kitabxana fondunun gələcək komplektləşdirilməsi məqsədilə tərtib edilə bilərdi. Lakin məlum olur ki, hələ XVIII əsrdə təsnifat sistemi, ədəbiyyatın uçotu, qeydiyyata alınması təcrübəsi mövcud olmuşdur, deməli, kitabxana fondları vaxtaşırı yoxlanılmış, mühafizə işi aparılmışdır. Orta əsr kitabxana təsnifat sistemlərinin prinsipləri,

xüsusiyyətləri ayrıca bir tədqiqat işinin obyekti ola bilər.

Mövcud materiallar əsasında belə hesab etmək olar ki, kitab fondu islam dini prinsiplərinin məntiqi əsasında elm sahələri üzrə təsnifləşdirilirdi. Buna əsasən fondda əvvəlcə ilahi elmlərə, sonra göy haqqında elmlərə, yer haqqında elmlərə və canlı aləm haqqında elmlərə aid kitablar düzülməli idi. Bu ümumiləşdirilmiş sahələrin daxilində də ədəbiyyat qruplaşdırılırdı. Məsələn, ilahiyyat elmlərinə aid kitabların düzülüşündə əvvəlcə Quran, sonra Qurana yazılmış şərhlər və s. ardıcıllıqla düzülürdü. Hətta bir növ ədəbiyyat öz daxilində də ümumi qəbul olunmuş prinsiplərə əsasən bölünür və bu, şübhəsiz, fondun yerləşdirilməsində öz əksini tapırdı.

"Nameyi-nami əsərini tədqiq edən S.Onullahi münşaatın üç növü haqqında məlumat verir. Burada deyilir: "I növə tarixi faktlar və xəbərləri toplayıb yazmaq daxildir. II növə fərmanlar və rəsmi sənədlər yazmaq, III növə isə müxtəlif məzmunlu məktublar daxildir.

Güman etmək olar ki, fondun yerləşdirilməsində bu qayda gözlənilmişdir. Azərbaycan kitabxanalarında bütün orta əsrlər tarixi boyu xüsusi ədəbiyyatı qadağan edəcək siyahılar olmamışdır. Bununla yanaşı, orta əsr kitabxanalarımızda bütün kitabların təbliğinə şərait yaradıldığını iddia etmək də düz olmaz. Kitabxananın yaradıcısından, onun sahibkarından, kitabxananın yaradılması məqsədindən asılı olaraq və bütün bunlarla bərabər islam dini prinsiplərinin imkan verdiyi istiqamətlərdə kitabxanaların fondu formalaşırdı. Senzura yalnız kitabxananı təşkil edən şəxsin və şəxsi baxışları çərçivəsində mövcud idi. Bəzən bir kitabxanada qadağan edilmiş kitablar digər kitabxanalarda ümumi qaydada qorunub saxlanılırdı.

İran tədqiqatçısı Ənsari özünün "Kitab və cəmiyyət məqaləsində kitabxanaların növlərini sadalayaraq belə bir fikir iddia edir: "...Belə kitabxanalar islam dini ölkələrində də, xristian dini ölkələrində də çox olub. Yalnız bunları fərqləndirən cəhət odur ki, İslam dini ölkələrində olan kitabxanalar daha açıq, ümumi olub və xalqın istifadəsinə verilib. Ənsarinin bu fikrini daxili hissələrə bölüriksə, onun bir sıra cəhətləri ilə razılaşmalı olarıq. Lev Qumilyovun və Murad Acinin tədqiqatlarından da məlum olur ki, Vatikan və Rus provaslav kilsəsinin kitabxanalarında senzura ilə yanaşı çox sayda qiymətli kitablar istifadədən gizlədilmiş, bəzi hallarda tarixin saxtalaşdırılması məqsədi ilə istifadə olunmuşdur. Bu baxımdan orta əsr Azərbaycan kitabxanaları daha açıq və daha ictimaidir. Digər tərəfdən, kitabxanaların ictimailik dərəcəsi ayrıca bir yanaşma tələb edir. Belə ki, kitabxanaların növündən və təşkil olunması məqsədindən asılı olaraq konkret oxucu kontingenti mövcud olmuşdur. Hər hansı bir məktəbli və ya tələbə saray kitabxanasına yol tapa bilməmiş və əksinə, hər hansı bir saray əyanı mollaxana, mədrəsə kitabxanasının oxucusu olmamışdır. Orta əsr kitabxanalarımızın şərti olaraq ümumi istifadəyə açıq olması islam dini etikası ilə tənzimlənirdi.

Azərbaycan ərazisində türk hakimlərinin hökmranlığı dövrlərində kitabxanaların kitab fondunda əgər dini və elmi ədəbiyyat əsasən ərəb dilində bədii ədəbiyyat, xüsusilə də fars dilində, poeziya toplanırdısa, xalq yaradıcılığı və mərasim ədəbiyyatı Azərbaycan (türk) dilində yazılır və fondlarda saxlanılırdı. Bu mənzərə son 1500 illik tarixdə yalnız iki dəfə pozulmuşdur. İlk dəfə Ərəb xilafəti zamanı, sonuncu dəfə Pəhləvilərin hakimiyyətə gəlməsi ilə. Odur ki, tədqiqatçının bu fikrini yalnız xüsusi hallara şamil etmək olar. Mədrəsə kitabxanalarının komplektləşməsi əsasən onu təşkil edən şəxs tərəfindən həyata keçirilirdi. Eləcə də, şah və hakimlər tərəfindən vəqf yolu ilə kitabxanalara kitabların bağışlanması da məlumdur.

Azərbaycanda şəxsi kitabxanaların tarixi mənbələrin verdiyi məlumata əsasən ən qədimidir. Hicri 200-cü (miladi 821) ildə Həmədanda mövcud olan Əbu Vəfanın kitabxanası bizə məlum olan ilk kitabxanadır. Şəxsi kitab kolleksiyası toplamaq orta əsrlərdə nəinki Azərbaycanda, hətta bütün dünyada geniş yayılmışdı. Bu kitabxanaların fəaliyyət dairəsi son dərəcə məhdud olsa da, kıtab fondu adətən zəngin və rəngarəng olurdu. Xüsusilə Azərbaycanda sufiliyin geniş yayılması şəxsi kitabxanaların da sayını artırırdı. Demək olar ki, hər bir sufi şeyxinin şəxsi kitabxanası olmuş və fondunda az və ya çox miqdarda əsasən dini, dini-fəlsəfi, ədəbiyyatşünaslıq, dilçilik və s. bu kimi xarakterli ədəbiyyat saxlanılmışdır. Xətib Təbrizinin Təbrizdə şəxsi kitabxanası da məhz belə azsaylı kitab fondu olan kitabxanalardandır. Şəxsi kitabxanaların bir qismi nəsildən-nəsilə keçmişdirsə də, mənbələrdən məlum olduğuna görə, müəyyən bir tarixi mərhələdə ya bütünlüklə vəqf olunmuş, bağışlanılmış, bəzən isə kitabxana sahibinin təşkil etdiyi mədrəsə, məktəb kitabxanasına verilmişdir. Azərbaycan tarixindən məlum olur ki, Səfəvilər dövründən çox-çox qabaq belə görkəmli alim və şairlər özlərinə məqbərələr də təşkil etmişdir ki, bəzən şəxsi kitabxanalar bütünlüklə bu məqbərələrə köçürülmüş, nəticədə ictimai kitabxanalar yaradılmışdır. Eləcə də, şəxsi kitabxanaların mədrəsə və məktəblərə də bağışlanılması haqda mənbələrdə məlumata tez-tez rast gəlirik. Tarixi faktlar göstərir ki, Azərbaycanda şəxsi kitabxanalar son dərəcə ictimai olmuş və müəyyən bir oxucu kontingentinin istifadəsinə verilmişdir. N.Ənsari bu barədə yazır: "Şəxsi kitabxanalar alimlərin və tələbələrin istifadəsinə açıq idi.

Xanəgahların kitab fondu, fondun məzmunu haqda mənbələrdə, demək olar ki, heç bir məlumat verilmir. Yalnız şeyxlərin, təriqət

başçılarının şəxsiyyəti, maraq dairəsi, əsərlərinin təhlili nəticəsində orada mövcud olan kitab fondunun məzmunu haqqında fikir söyləmək olar. Məqbərəni və xanəgahı təsis edənin şəxsiyyətindən asılı olaraq belə kitabxanalara bir qədər poeziya, ədəbiyyat, dilçilik mövzusunda ədəbiyyat daxil ola bilərdi. Dünyəvi ədəbiyyat əsasən elmi müəssisələrin və mədrəsələrin nəzdində toplanırdı. Saray kitabxanalarına toplanılan kitablar əsasən kitabın sənətkarlıq xüsusiyyətindən asılı olaraq seçilirdi və mövzu etibarilə də rəngarəng olurdu.

Rəbi-Rəşidinin vəqfnaməsindən gördüyümüz kimi, alimin məqbərəsinin sağında və solunda iki kitabxana açması bir faktdır. Bu dövrün tədqiqatçılarından, demək olar ki, hamısı öz əsərlərində bu faktı göstərmişlər. Lakin təəccüb doğuran bir məsələ barədə - kiçik bir ərazidə, məqbərənin sağında və solunda iki kitabxananın açılmasının nə qədər məntiqi olması barədə heç kim mülahizə söyləməmişdir. Eləcə də, Şəmbə Qazanda Qazan xanın təşkil etdiyi "Beytül qanun və "Beytül kütub kitabxanaları bunlardan birinin - "Beytül qanunun xüsusi, digərinin - "Beytül kütubun isə ümumi kitabxana olması haqqında fikir yürütməyə əsas verir.

Səfəvilər dövründə kitab məhsuluna böyük tələb müşahidə olunur. Kitabın baha olması onun əsas etibarilə kitabxanalarda toplanmasına səbəb olurdu. Adam Oleari Azərbaycanda kitaba olan tələbat haqqında belə bir fikir yürütmüşdür: "İranda (Səfəvilər dövlətində) kitabxanaların mövcud olması və eyni zamanda kitablara olan böyük maraq onların bahalaşmasına səbəb olur. Odur ki, hər hansı bir kitab, xüsusilə Quran, bizdə çap olunandan sonra bir reyxstaler olduğu halda, onlarda əlyazması halında on beş, iyirmi qat və daha artıq satılır. Bu səbəbdən də bir çoxları, xüsusilə çoxuşaqlı şəxslər, öz uşaqlarının bir hissəsini yaxşı dəstxətt öyrənməyə göndərirlər. Beləliklə, minlərlə adam bu cür kitab üzü köçürməklə və başqa yazı işləri görməklə dolanır.

Orta əsrlərin kitabxanaları haqqında əldə olunan məlumatların heç birində oxu zalları və ya buna oxşar bir müddət işi haqqında məlumat verilmir. Lakin xanəgahların quruluşu və orada icra olunan bir sıra proseslər əsas verir ki, burada olan xəlvətxanaları oxu zalı kimi qiymətləndirək. Belə ki, xəlvətxanalar funksiya etibarilə oxu zalını çox xatırladır. Buraya çəkilmiş müridlər mütaliə ilə məşğul olur, öz mürşidlərinin tapşırığı ilə və ya hər hansı mübahisədə iştirak etmək məqsədilə hazırlaşır və ya qarşıya qoyulmuş problem barədə kitablar yazırdılar. Odur ki, xəlvətxanaları oxucu zalının ibtidai forması hesab etmək olar. Kitabxanalardan kitabların itməsi, onların oğurlanması və ya bunun qarşısının alınması qaydalarının mövcud olması barədə əldə bir məlumat yoxdur. Fəqət XVI əsrdən başlayaraq kitabxana sahiblərinin, xüsusilə saray kitabxanalarının fondunda olan kitablara möhürlərin vurulmasına başlanması yaqin ki, bu məqsədi daşımış, kitabların itibdağılmasının, oğurlanmasının qarşısını almaq baxımından həyata keçirilən tədbir olmuşdur. Belə möhürlər adətən saray kitabxanalarının və şəxsi kitabxana sahiblərinin olmuşdur. Əgər nəzərə alınsa ki, təhsilin bütün dövrlərində islam dininin müşayiəti təmin olunurdu, onda şübhə doğurmur ki, məktəbə, mədrəsəyə, onun kitabxanasına, eləcə də kitaba münasibətdə islam dini normaları hakim idi. Kitabxana qaydalarını pozmaq, kitabı oğurlamaq və ya onu korlamaq günah hesab edilirdi. Yəqin ki, məhz bu normalara dəqiq riayət olunduğuna görə "Tarixe-Fərhənge- İran yazırdı: "Müəllim və tələbələrə kitabı asanlıqla əmanət verirdilər.

Göründüyü kimi, XVI-XVII əsrlərdə kitab-kitabxana münasibətləri tam mükəmməlləşmiş və formalaşmışdı. Artıq kitabxanalarımız konkret məzmun daşımış, bu məzmuna müvafiq olaraq komplektləşdirmə işi həyata keçirilmiş, oxucu-kitabxana münasibətləri təkmilləşmiş, kitabxanaların idarə olunması ənənələri yaranmış və inkişaf etmişdi. Tarixi inkişafda müşahidə etdiyimiz bu proses, şübhəsiz, cəmiyyətin inkişafından ayrı baş vermirdi. Orta əsrlərin kitab sərvəti və kitabxanalarımız cəmiyyətin inkişafından asılı olsa da, öz növbəsində cəmiyyətin həm elmi, həm də mədəni inkişafına təsir göstərmiş, ona xidmət etmişdir.

Pərviz KAZİMİ,
Bakı Dövlət Universitetinin dissertantı

ƏDƏBİYYAT

1. Azərbaycan kitabı: Biblioqrafiya: 3 cilddə. C.1. (1780-1920). -Bakı: 1963, 622 s.

2. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. -Bakı: Pedaqogika, 2004, 392 s.

3. Fərzəliyev Ş Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə). -Bakı: Elm, 1983, 152 s.

4. Həsənzadə C. XVI əsr Təbriz miniatürünün nadir nüsxəsi // Qobustan, 1986, № 3.

5. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə (Ən qədim dövrlərdən XX əsrə qədər). -Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004.-328 s.

6. Minai Ə., Rəhimov Ə. Orta əsr kitabxanalarımız // Ədəbiyyat və incəsənət, 1965, 31 iyul.

7. Müsəddiq M.H. Azərbaycanda kitabxana tarixindən. - Bakı: M.F.Axundov adına ARDK. Əsərləri, I buraxılış, 1980, s.41-58.

8. Onullahi S. Azərbaycanda kitabxanaçılıq // Ədəbiyyat və incəsənət, 23 avqust 1985.

9. Onullahi S. Təbriz kitabxanaları (X-XVII əsrlərdə) // ADU-nun elmi əsərləri. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, 1975. № 2. s.53-58.

10. Tərbiyət M. Daneşməndane- Azərbaycan. - Bakı: Azərnəşr, 1987, 460 s.

UŞAQ DÜNYASI



"Xəzər Xəbər" jurnalının məktəblilər üçün əlavəsi

"DÜŞÜNDÜRƏN MİSRALAR" İNŞA YAZI MÜSABİQƏSİNİN QALİBLƏRİ

Hər il olduğu kimi, bu il də "Dünya" məktəbində mart ayı Azərbaycan dili və ədəbiyyat ayı elan edilmişdi. Fənn aylığında bir sıra tədbirlər keçirilmişdir. Bu tədbirlər içərisində inşa yazı müsabiqəsi yenə də diqqət mərkəzində idi. Bu dəfəki müsabiqə mövzuları şair, professor Hamlet İsaxanlının şeirlərindən seçilmişdi. Düşündük ki, bu, həm də Hamlet müəllimin yubileyi üçün ən yaxşı hədiyyəmiz ola bilər. Yanılmadıq...

"Düşündürən misralar" adlanan inşa yazı müsabiqəsi çox yüksək səviyyədə keçdi. Nəticələr belə deməyə əsas verir ki, şagirdlərimiz öz fikirlərini, düşüncələrini sərbəst ifadə etməkdən, mülahizələrini hamı ilə bölüşməkdən məmnunluq duyur və hər dəfə onlara verilən yaradıcılıq sərbəstliyindən yetərincə yararlanmağa can atırlar. İnşaları oxuyanda hiss edirsən ki, şagirdlərimiz içərisində cəmiyyətin ağır mənəvi yükünü zərif çiyinlərinə götürməyə özündə cəsarət tapanlar çoxdur. Mən onların cəmiyyətin təəssübünü çəkən, qayğısına qalan qeyrətli vətəndaşlar kimi boya-başa çatacaqlarına, həyatda özlərinə layiqli yer tutacaqlarına əminəm.

Hər bir şagirdin inşasını oxuyanda həmin şagirdin çöhrəsi göz önündə canlanır. "Özündən sonrakılara ibrət ola biləcək iz qoymaq istəyən" Ülkər, "gələcəyə inamında gəmilər üzən" Nərmin, "buludların üstündən bəyaz mələklər kimi dünyanı seyr edən" Nailə və başqaları... Düşünürsən ki, onların zahiri kimi, daxili aləmi, mənəviyyatı da necə gözəlmiş!

"Dünya" məktəbi şagirdlərinin müsabiqənin nəticələrinə olan böyük marağını nəzərə alaraq, həmin inşa yazılardan bir neçəsi ilə sizi tanış etməyi lazım bildik.

Aydın Qənbərov,
filologiya elmləri namizədi,
"Dünya" məktəbinin müəllimi

Ömür adlı karvan keçir...



Ülkər Qaracalı,
X sinif şagirdi

Dünya böyük bir teatrdır. Burada min illərdən bəri ancaq bir tamaşa oynanılır: Həyat! Hər gün bu tamaşaya minlərlə aktyor gəlir və gedir. Ancaq bu tamaşanın məşqi olmur, o, yalnız bircə dəfə oynanılır...

Biz dünyaya gələndə hərəmizə bir səhnəcik tapşırılır. Hamı ona verilən vaxtdan düzgün istifadə etməyə çalışır, yaddaşlarda qalmaq istəyir. Verilən vaxt ömür adlanır...

Həyatı kənardan hərə bir cürə görür. Mən isə onu belə görürəm. Bəziləri yaşamağın çıxış yolunu hər şeyi həyatın axarına buraxmaqda görür. Heç bir cəhd göstərmədən hər şeyə "qismət" deyərək yaşayırlar. Mən etiraz etmirəm, hər şey nəticədə olduğu kimi olur. Ancaq əgər hər şey həyatın öhdəsinə qayıdacaqdısa, onda bu qədər potensial, ağıl bizə nəyə görə verilib? Bu yerdə mənə dahi Şanelin

sözləri kömək etdi: "Sizin taleyiniz sizin əlinizdədir. Bəli, siz sizə tapşırılanı edin, yaşayın, mübarizə aparın. Qalanına Yaradan özü qərar verəcək".

Siz iz qoymağa çalışın. Sizdən sonrakılara ibrət, nümunə ola biləcək əsl insan izi. Unutmayın, qəhrəmanlar, sərkərdələr təkcə qanlı müharibələrdə olmur. Onlar bizim aramızdadırlar. Çünki kamil, düşüncəli, ya da elə adicə, həyatı olduğu kimi dərk etmiş hər kəs üçün həyatın bir günü böyük bir müharibədən daha həlledicidir. Gündəlik həyatda qəhrəman olmaqsa hər adamın işi deyil. Müharibələrdə minlərlə insan eyni bir şey haqqında düşünür. Adi günlərdə isə hərənin bir qayğısı, problemi olur və bütün gün ərzində müxtəlif insanlarla ünsiyyət qaçılmazdır. Düşünün, bütün bir həyat boyu ətrafdakı hər kəsi düzgün başa düşüb, onların qəlbini qırmadan yaşamaq qəhrəmanlıq deyilmi? Bu qədər qarışıqlıqların içərisində öz karvanını çəkə bilmək isə ancaq iradəli, cəsur insanlara nəsib olur.

Gizli bir dünyam var, hay-küysüz, təmiz...



Nailə Cəbrayılova,
VIII a sinif şagirdi

...Mənim həyatımda elə anlar olur ki, elə bil mən bu dünya ilə tamamilə əlaqəmi kəsir və sanki başqa bir dünyada oluram.O dünya ki, mən tamamilə azadam, müstəqiləm, o dünya ki, elə bil həmin dünyada qanad çalan azad bir qartalam.

Mən fikirlərə qapılır, düşünür, fikirləşirəm. Mənim dünyamda günahlar, haqsızlıqlar, ədalətsizliklər olmur. Mən yalnız orada-öz dünyamda rahatlıq tapa bilirəm, dincəlirəm. Mənim dünyam ancaq mənim istədiyim kimidir-rəngarəng, təmiz, saf. Mənim dünyam heç kəsin dünyası kimi deyil, tamamilə fərqlənir. Çünki mən öz beynimdə fikirləşdiyimi həmin an yaşayıram. Bəlkə də heç bir zaman gerçəkləşməyəcək arzularım yaşanır, gerçəkləşir. Mən öz dünyamda bütün doğrularımı tapıram. Öz dünyamda mən heç kəsi görmürəm, heç kəsi eşitmirəm, özümü belə unuduram. Məncə özümü dinləmək, özümü başa düşmək, səhvimi tutmaq, vicdanımın səsini dinləmək üçün ora - mənim dünyam tək, əvəzolunmaz və ən yaxşı yerdir. Mənim dünyam uşaq qədər safdır, göy qurşağında olan yeddi rəng kimi rəngarəngdir. Ora çox böyükdür: ucu-bucağı görünməyən səhra kimi, şəffaf okean kimi, odlu-alovlu günəş kimi,mənim balaca ürəyim kimi. Mənim dünyam yağışdan sonra çiçəklər üzərində dayanan su damlaları qədər saf və təmizdir. Bu təmizlikdə mənim ruhum təzələnir və sanki dünyanın gözəlliyini bir tablonun gözəlliyi qədər görürəm. Bu tablo mənimçün hər şeydən dəyərlidir.

Mən öz dünyama müxtəlif vaxtlarda daxil oluram. Bəzən musiqiyə qulaq asarkən, bəzən yuxuya gedərkən, təmiz havada gəzərkən... Dünyam elə mənim sirdaşımdır, dostumdur. Mənim dünyam elə mən özüməm, o, təkcə mənə aiddir. Orada mən göylərdən, buludların lap üstündən bizə baxan bəyaz mələklər kimi öz dünyamı seyr edirəm. Mən öz dünyamı çox sevirəm.

Dəryalar qədər dərin, ucsuz-bucaqsız arzular



Nərmin Yəhyayeva,
VIII a sinif şagirdi

Zəngli saatın səsi. Bütün daxili sükut bununla pozulur. Gözümüzü açan kimi səs-küy arasına düşürük. Məktəbə gələndə yoldakı tıxaclar, əsəbi insanlar və məktəb zənginin xoş ahəngi bunlara qoşulur. Hərdən tək qalmaq istəyirəm. Bütün səslərdən, problemlərdən uzaqda yalnızca nəyə görə bu dünyanın bu qədər sirli aləm olmasını anlamaq üçün tək qalmaq istəyirəm. Hərdən düşünəndə deyirəm: Mənim ən yaxın sirdaşım kimdir? Mən belə düşünürəm ki, əgər insanın heç kim bilmədiyi daxili dünyası yoxdursa, deməli, o insan həmişə təkdir. Mənim daxilimdəki dünya mənim üçün mənəvi baxımdan Yer kürəsindən də böyükdür. Bu qədər böyük olan fikirləri isə bir-iki cümlə ilə belə ifadə edə bilərəm: Fikirlər, düşüncələr hamısı sanki bir-birilə açarlanmış bir şəxsi günlüyün içərisində yer almışdır. Özü də bu fikirlər elə şəxsidir ki, günlüyün açarı məndən başqa heç kimdə ola bilməz. Bəzən fikrim ancaq xarici aləmə yönələndə, özüm haqqında tamamilə unudanda sanki o dəftərin açarını itirmiş, heç zaman tapmayacaq kimi oluram.

Dəryalar qədər dərin, ənginliklər qədər ucsuz-bucaqsız sonsuz arzularla yaşayan bir yaşdayam. Gələcəyə inamımda gəmilər üzür. Bu gəmilərin kapitanı da özüməm. İnam yaxşıdır, amma hərəkət də lazımdır. Doğrudan hay-küysüz, təmiz bir dünyanın olmasını kim istəməz? Mən bu sualı hamıya verərdim və inanmıram ki, kimsə bu suala əks bir cavab versin. Mən öz dünyamda həmişə azadam. Burada etdiyim hər bir hərəkətimin heç kimə ziyanı yoxdur. Elə ən gözəl olan budur. Lakin daxili dünyanın yeganə pis cəhəti vardır. Burada sənin səhvlərini heç kim tutmur və sən o səhvləri həmişə təkrar edirsən. İnsan nə dərəcədə hay-küysüz, təmiz dünyasında yaşasa da, çox zaman oradan döndüyünə peşman olsa da, əsl real insanlar vaxtının əsasını həqiqi dünyada keçirirlər.

Axşamlar yenə də gizli, hay-küysüz dünyama qayıdıram və özümə sual verirəm: Bu gün nə əldə etmişəm? Nə öyrənmişəm? Əgər insan hər gün özlüyündə bu suallara cavab axtarsa, o, çox uzaqlara gedə bilər.

Epiloq əvəzi:

Bəzən yuxularımda yer kürəsinin üzərində uçuram və yuxarıdan öz dünyamın xəritəsinə baxıram. Burada əlvan rəngli, bəzən isə boz rəngli ərazilər görürəm. Yuxuda da olsa düşünürəm: bəlkə bu sahələr mənasız keçən günlərimdir? Sonra isə düşünürəm: Bu boz sahələr də rəngli olsaydı, nə gözəl olardı?!

March/April Activities at Dunya School

March has traditionally been an 'English Month' at Dunya School when teachers engage students in new and interesting activities. This year several performances were held for morning ceremony and activities extended into April when teachers held "open house" classes.

Morning ceremonies are special at Dunya and students take tremendous interest in both performing and watching various events. On Thursday, March 6, Eldar Zeynalov, teacher of upper level English classes, and Kathryn Noori, opened the morning ceremonies with encouraging statements to students about their performance and the importance of English in today's global world. Following their remarks children in Ms. Shafug's second grade English class, sang and acted out a lively action song that encouraged the audience to respond and interact. On Friday, March 7th, students in Konel Zeinalova's 5th grade class gave recognition to two important and forthcoming events, International Women's Day and Mother's Day, by reciting a special poem about "Mothers."



In anticipation of the Nov Ruz holiday on Thursday, March 13th, Ms. Konul Zeinalova's 4th grade English class, recited a poem focusing on spring "All Things Bright and Beautiful." The following day students from Gunel Mammadova's 1st grade English class gave a presentation based on a well known story they had been reading, "Brown Bear, Brown Bear." Students in the audience were surprised and delighted with the animal puppets in this dramatic act.



Activities continued into the month of April when English teachers gave "open house" lessons. In presenting the lessons teachers drew on research that informs best practices. Their lessons were well prepared and motivating for students.

Mr. Eldar Zeynalov gave the first open house session to 10th graders. His lesson focused on a relevant topic for students regarding the adverse effects of computer games. Individual students reported on various problems which included: 1)



Space Warrior's Wrist,' which occurs when the muscles of the lower arm become inflamed as a result of the constant use of the arm; 2) the weight gain of children who spend a lot of time playing computer games; and 3) epilepsy caused by the signals from the computer screen. New vocabulary was introduced as the lesson progressed and grammatical structures of various patterns of words highlighted. The student's participation in this lesson demonstrated their command of an impressive vocabulary and working knowledge of correct syntax. The students were involved in this lesson, responsive to the questions, and entered into meaningful dialogue with Mr. Zeynalov.

Dramatics is a novel, effective and highly motivating approach to teaching and Parvine Mursalova incorporates this strategy frequently



in her lessons. During her open house lesson Ms. Mursalova engaged students in a dramatic dialogue. After reviewing vocabulary and providing necessary translations, Ms. Mursalova encouraged students to enter into a dialogue involving a "shopping scene." The lesson integrated vocabulary related to shopping, prices and fruit with grammatical structures. Students were assigned to real life situations as they took on the roles of shop keepers and clerks.

Ayten Rustamova presented a very well developed lesson on "Family Trees." In mediating curriculum to influence learners Ms. Rustamova drew on the experiences of students regarding family relationships. To help learners succeed the lesson incorporated visual, auditory and kinesthetic styles of learning and included several different and engaging activities. Students were



involved in a discussion of family relationships, entered into a dialogue with peers and played interaction games that reinforced language skills.

Model lessons presented by teachers during open house were attended by other teachers and staff members. These lessons served several important reasons: 1) students took personal pride in being observed by other teachers and administrators, 2) teachers reflected on important elements to be included in a lesson which is critical to self-improvement; 3) modeling is important to learning how to teach and the lessons served as a professional development activity when observers discussed aspects of the lesson they had just observed.

These events were effective in promoting the English environment at Dunya School and the work and effort of all participating teachers is very much appreciated.

Written by
Professor Kathryn NOORI,
School of Education



ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

Bahariyyə - klassik Şərq ədəbiyyatında baharı təsvir edən lirik seirlər, yaxud böyük bir poemanın baharı əks etdirən hissəsi.

Bahariyyə qəzəl, qəsidə, məsnəvi formasında və başqa şəkillərdə ola bilər. Ş.İ.Xətainin Dəhnamə poemasının başlanğıcında baharın təsvirinə 62 beyt həsr olunmuşdur.

Beyt - Yaxın və Orta Şərq xalqları poeziyasında qəzəl, qəsidə, məsnəvi və s. formalarda, eyni vəzndə yazılan əsərlərin məzmunca bir-birinə bağlı qoşa misrası.

Belletristika - nəsrlə yazılan bədii əsərlərə (hekayə, novella, povest, roman) verilən ümumiləşdirici ad.

Bestseller - böyük tirajla çap olunub tez satılan kitab.

Bəlağət - sözün mənalı və gözəl olması. Sözü yerinə, məqamına, görə münasib, qulaq asanlara təsirli danışana bəliğ deyilir.

Bənd - şeirdə qafiyə və intonasiya ilə bir-birinə bağlanmış iki və ya bir neçə misra.

Bəhr - Şərq ədəbiyyatşünaslığında ən çox işlənən terminlərdən biri. Əruz elmində bir termin kimi şeir vəznini bildirir. Məsələn, rəməl bəhri, həzəc bəhri, mütəqari bəhri, səri bəhri və s.

Bəhri-təvil - satirik və lirik səciyyəli qafiyəli nəsr əsəri. Həcmcə bir-iki səhifədən artiq olmur. Cümlələri, hətta ifadələri da həmqafiyə olduğu üçün birnəfəsə oxunur.

Bibliioqrafiya - çap olunmuş əsərlərin qeydiyyatını aparan, onları sistemləşdirən elm sahəsi.

Bibliofil - kitabı sevən, kitab toplayan, kitaba ilham və zəkanın məhsulu kimi yüksək qiymət verən şəxs.


Bilina - rus xalq ədəbiyyatı janrı; bahadırlar və xalq qəhrəmanları simasında tarixi hadisələri əks etdirən, nağıl şəklində yaradılmış rus mahnı-poemaları.

Hazırladı:
Bəhlul Abdulla

Kitabxanamızın yeni kitabları

YENİ KİTABLAR

Zveigert K. Introduction to comparative law. - 3rd ed. - Oxford: Oxford University Press, 1998. - 714 p. - ISBN 978-0-19-826859-8



Eynullayev Cəmil F., Franzesko Apruzzi. Azərbaycan Respublikasında qanunvericilik prosesi üzrə təlim vəsaiti. - Azərbaycan: Çinar - Çap. - 47 s.





Allahverdiyev S. S. Əqli mülkiyyət hüququ. - Bakı: Digesta, 2006. - 584 s.





Allahverdiyev Sabir. Şərəf, ləyaqət və işgüzar nüfuzun mülki - hüquqi üsullarla məhkəmə müdafiəsi. - Bakı: Digesta, 2006. - 144 s.

Finland as a Knowledge Economy. - Washington, D. C.: The World Bank, 2007. - 118 p.
ISBN-10: 0-8213-6911-3




Remittances and Development.
Washington, D. C.: The World Bank, 2008. - 383 p. - ISBN 978-0-8213-6870-1





Vəkillik üzrə praktikum. - Bakı: GSO Industry, 2008. - 790 s.
ISBN 9952-8074-4-7



Craig P. EU law: text, cases, and materials / P. Craig and G. de Burca. - 4th ed. - Oxford: Oxford University Press, 2008. - 1148 p. - ISBN 978-0-19-927389-8

Materialları çapa hazırladı: Əminə TAĞIYEVA

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org